## Azərbaycan və Türkiyə XİN başçıları Ukraynanı müzakirə edib



**Dünən Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mevlüt Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

XİN-dən APA-ya verilən xəbərə görə, tərəflər, bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, eləcə də Ukraynadakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.



## Evsizlərin üzünə gün doğacaq?

Uçotun aparılması yaxşı haldır, gərək işin nəticəsi də olsun

Azərbaycanda yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahıları dərc ediləcək.

(səh.6)

# Dəyişikliklər qəbul edilib

## Həqiqi hərbi xidmətə könüllü daxil olanlar icbari narkoloji müayinədən keçəcək



**Həqiqi hərbi xidmətə könüllü daxil olanların və kadr-zabit heyətinə könüllü daxil olanların icbari narkoloji müayinədən keçməsi nəzərdə tutulur.**

Bu barədə məsələ parlamentin bu gün keçirilən iclasında birinci oxunuşda müzakirəyə çıxarılan "Narkoloji xidmət və nəzarət haqqında" və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihəsində əksini tapıb.

(səh.2)


№ 58 (5580), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 aprel 2022-ci il (çərşənbə)




## ABŞ Brüsseldə keçiriləcək görüşə önəm verir

Antoni Blinken Prezident İlham Əliyevə zəng edib

**Dünən Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Antoni Blinken aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirib.

Prezident İlham Əliyev regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlara başlanması, nəqliyyat bağlantıları və kommunikasiyaların qurulması üçün Azərbaycanın irəli sürdüyü təklifləri və mövqeyini qeyd edib.

Dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən itkin düşmüş hesab olunan 3890 nəfər azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsi və kütləvi məzarlıqların yerləri barədə məlumat verilməsinin vacibliyini diqqətə çatdırıb.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

## Avropa Məhkəməsi Ermənistanın növbəti vəsatətini rədd edib



**İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Ermənistanın növbəti vəsatətini rədd edib.**

Bunu Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov bildirib.

Ç. Əsgərov qeyd edib ki, Avropa Məhkəməsi Azərbaycanın təqdim etdiyi mövqeyə uyğun olaraq 4 aprel 2022-ci ildə növbəti dəfə Ermənistanın müvəqqəti təminat tədbirləri barədə vəsatətini rədd edib: "Qonşu ölkə anlamalıdır ki, beynəlxalq hüquq olan yerdə siyasi spekulyasiyalar əhəmiyyətsizdir".

# Böyük şəhərlərdə vahid bələdiyyə sistemi qurulmalıdır

## Millət vəkilləri hesab edir ki, bələdiyyələrə konkret səlahiyyət vermək lazımdır



**Parlamentin dünənki iclasında bələdiyyələrin fəaliyyətinə dair illik məruzə müzakirə olunub və səsə qoyularaq qəbul edilib. Ədliyyə nazirinin müavini Vilayət Zahirovun təqdim etdiyi məruzədə qeyd edilib ki, keçən il bələdiyyələrin 90 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib.**

Həmin protokollar üzrə 75 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib, 5 inzibati xəta protokoluna xitam verilib, 10 protokol isə baxılmaqdadır. Məruzədə bildirilib ki, 2021-ci ildə 80 min bələdiyyə aktı üzrə inzibati nəzarət həyata keçirilib.

(səh.4)

# Bakı-Quba yolu təmir olunmur

## Vahid Əhmədov Baş nazirdən narazıdır

**"Baş nazirin, müavinlərinin, digər nazirlərin Qubada, Qusarda, Xaçmazda villaları var. Onlar gedəndə o yolu görmürlər?!"**



**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. Cari məsələlərlə bağlı çıxış edən deputatlar bəzi problemləri gündəmə gətiriblər. Millət vəkili Vahid Əhmədov növbəti dəfə Bakı-Quba yolunun bərbad vəziyyətdə olmasından danışıb.**

Deputat xatırladıb ki, Azərbaycan hökumətinin hesabatında Bakı-Quba yolu ilə bağlı məsələnin həllini tapması ilə bağlı məsələ qaldırıb. V.Əhmədov baş nazir və digər şəxslərlə iclasdan sonra da görüşdüyünü açıqlayıb: "Bir daha bu tribunadan baş nazirə müraciət edirəm ki, ya yolun təmiri, ya da alternativ yolun çəkilməsini təmin etsin. Mən Qubada idim, sakinlər artıq bu yoldan istifadə edə bilmirlər. Baş nazirin, müavinlərinin, digər nazirlərin Qubada, Qusarda, Xaçmazda villaları var.

(səh.3)



## "Qərb Rusiya-Ukrayna danışıqlarını pozmağa çalışır"

Sergey Lavrov: "Moskva Kiyevlə siçan-pişik oynamayacaq"

**Qərb Buça ətrafında isterikanı qızışdıraraq İstanbulda irəliləyiş əldə olunduğu Rusiya-Ukrayna danışıqlarını pozmağa çalışır.**

Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib. Onun sözlərinə görə, Buçadakı təxribat Ukraynanın o cümlədən Krımla bağlı mümkün sülh müddəalarını ilk dəfə kağıza köçürdüyü zaman baş verib.

(səh.2)

## Daha 36 nəfər koronavirusa yoluxub

2 nəfər vəfat edib, 44 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 36 yeni yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 792 103 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 084 nəfər müalicə olunaraq sağalıb, 9 700 nəfər vəfat edib, aktiv xəstə sayı 319 nəfərdir.

Ölkədə son sutka ərzində 4 867, hazırkı dövrədək isə 6 721 330 test aparılıb.

## Narkotika satanlar 10 il həbsdə yatacaq

**Azərbaycanda güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ilə məşğul olanlar 10 il həbs ediləcək.**

Bu, parlamentin dünən keçirilən iclasında I oxunuşda müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə dəyişikliklərdə əksini tapıb.

Dəyişikliklə Cinayət Məcəlləsinin (240-cı maddə: Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi) 240.1, 240.2 və 240.3-cü maddələrində nəzərdə tutulmuş əməllər güclü təsir edən maddələrə münasibətdə xüsusilə külli miqdarda törədildikdə altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

*Sənəd səsverməyə çıxarılaraq I oxunuşda qəbul olunub.*



## "Brüssel görüşündə ərazi güzəştindən söhbət gedə bilməz"

Həşim Səhrablı: "Tərəflər sülh müqaviləsi imzalamayacaq, lakin bu istiqamətdə ciddi addımların atılması haqda razılıq əldə edilməsi mümkündür"

(səh.3)

## Ətin qiymətinin bahalaşacağı da gözlənilir

Nazim Bəydəmirli: "Ət istehsalı üçün lazım olan yem məhsulları Rusiya və Ukraynadan gətirilir"



(səh.4)



# İsrail Qarabağda iri layihələrdə iştirakçı olacaq

## Azərbaycan-İsrail əməkdaşlığının dərinləşməsi dünya nizamının dəyişdirilməsi cəhdləri fonunda aktuallıq kəsb edir

**Prezident İlham Əliyev İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin Turizm naziri Yoel Razvozovu qəbul edib. Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirib.**

İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğulayıb. Prezident həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirib. İqtisadi sferada əlaqələrə toxunan ölkə rəhbəri energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib. Prezident Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu söyləyib. Dövlət başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb. Ölkə rəhbəri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə edib. Prezident hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb. Dövlət başçısı yəhudi icmasının üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etmələrinin və şücaət göstərməsinin ölkəmizdə ehtiramla qeyd olunduğunu bildirib. İsrailin Turizm naziri Yoel Razvozov da öz növbəsində Azərbaycanın gözəl bir ölkə olduğunu vurğulayıb. Uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirib. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini deyib. Bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu bəyan edib.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, dövlət başçısı İlham Əliyevlə Yoel Razvozovun müzakirələrindən 4 xətti önə çıxarmaq olar. Ekspertin sözlərinə görə, onlardan ikisi iqtisadi, ikisi isə hərbi-siyasi məzmun daşıyır:** "İsrail şirkətləri Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji resurslarına sərmayə qoymaqda maraqlıdırlar. Yüksək texnologiyalar sahəsindəki əməkdaşlıqda yeni faza açılır. İkitərəfli münasibətlərdə hərbi-texniki əməkdaşlıq xüsusi önəm daşıyır. Nazirin postmünaqişə dövründə Azərbaycanın ərazi bütövlüyünə dəstək nümayiş etdirməsi İsrailin Bakıya qoyduğu siyasi sərmayəni keyfiyyətcə yeni mərhələyə qaldırır. Azərbaycan-İsrail əməkdaşlığının dərinləşməsi dünya nizamının dəyişdirilməsi cəhdləri fonunda aktuallıq kəsb edir. İsrail kimi dövlətin Azərbaycanla maraqlarında toqquşan kəsişmələr mövcud deyil, bu isə əməkdaşlığın hamar xətt üzrə inkişafına töhfə verir. İkitərəfli münasibətlərdəki hərarət Azərbaycanla İsrailin təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığını zəruri edir. Əlaqələr ikili formanın sərhədlərini aşaraq üçtərəfli əməkdaşlığa yol açır. Söhbət Azərbaycan, Türkiyə, İsrailin birgə maraqlar əsasındakı strateji gedişini müəyyənləşdirməsindən gedir. Bu gedişat regionun təhlükəsizliyi baxımından vacib əhəmiyyət daşıyır. Azərbaycanla İsrail münasibətlərində hərbi-texniki əməkdaşlığın qol-qanad açması da postmünaqişə gerçəkliklərinin tələblərindən biridir. 44 günlük müharibədən sonra İsrailin "Meteor Aerospace" hərbi şirkəti bəyan edib ki, Bakı Gəmiqayırma Şirkəti ilə birgə müəssisə yaratdı".

*Analitik vurğulayıb ki, Azərbaycan iki milyard dollar dəyərində silah alınması üçün İsraillə danışıqlar aparır:* "Bu mənada Azərbaycanla İsrail arasında hərbi-texniki əməkdaşlığın ölçüsünü böyütmək üçün yeni müqavilə üzərində işlənildiyini söyləmək mümkündür. İsrailli naziri Bakıya gətirən səbəblər daha çox iqtisadi amillərlə əlaqəlidir. Lakin nəzərə alaq ki, Azərbaycan-İsrail arasındakı strateji partnyorluğu iqtisadi bağlar möhkəmləndirir. İsrailin həmin tərəfdaşlıq əsasında Qarabağdakı layihələrdə iştirak səviyyəsini genişləndirməsi gələcək üçün daha praqmatik platforma yaradacaq. Güman edirəm ki, təhlükəsizlik sferasında, kəşfiyyat məlumatlarının mübadiləsi müstəvisində daha yaxşı əməkdaşlıq sütunu ucaldılacaq. Hələlik Azərbaycanın İsraildə səfirlik açması reallaşmayıb, yəqin ki, bunun da formulları müzakirələr masasındadır".

**İsmayıl Qocayev**

# Azərbaycanla İran arasında Anlaşma Memorandumu təsdiqlənib

## Bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb

**Azərbaycanla İran Hökumətləri arasında Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu təsdiqlənib.**

Bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycanla İran arasında martın 11-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" təsdiq olunub.

Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görəcək.

Azərbaycan Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi ilə bağlı zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İran Hökumətinə bildiriş göndərəcək.

# "Qərb Rusiya-Ukrayna danışıqlarını pozmağa çalışır"

## Sergey Lavrov: "Moskva Kiyevlə siçan-pişik oynamayacaq"



**Qərb Buça ətrafında isterikanı qızışdıraraq İstanbulda irəliləyiş əldə olunduğu Rusiya-Ukrayna danışıqlarını pozmağa çalışır.**

Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib. Onun sözlərinə görə, Buçadakı təxribat Ukraynanın o cümlədən Krımla bağlı mümkün sülh müddəalarını ilk dəfə kağıza köçürdüyü zaman baş verib.

Lavrov İstanbulda Ukrayna ilə danışıqlardan sonra yerlərdə gərginliyin azaldılmasının Rusiya Federasiyasının xoşməramlı jesti oıduğunu söyləyib:

"Rusiya Ukrayna ilə danışıqlar masası arxasında vicdanlı və ardıcıl işləməyə hazırdır".

"Moskva Kiyevlə siçan-pişik oynamayacaq".

Bunu da Rusiya xarici işlər naziri Sergey Lavrov Ukrayna ilə sülh danışıqlarının perspektivlərini və Kiyevin taktikasını şərh edərkən deyib.

"Bizi Ukrayna tərəfinin müqavilə bağlanarsa, bir neçə gün ərzində bütün hərbi əməliyyatların dayandırılmasını, Rusiya Silahlı Qüvvələrinin Ukraynanı tərk etməsini və bundan sonra referendum və parlamentdə ratifikasiya keçirməli olduğunu tələb etmək qərarına gəlməsi narahat edir. Çox böyük ehtimal var ki, bu ratifikasiya və referendum mənfi nəticə verdikdə, danışıqlar prosesinə yenidən başlamaq lazım gələcək. Biz belə siçan-pişik oynamaq istəmirik", - deyə Lavrov jurnalistlərə bildirib. (apa)



# "Ukrayna üçün ayağa qalx!"

## Avropa Komissiyasının prezidenti Kiyevə səfər edəcək

**Aprelin 1-i Belçikanın paytaxtı Brüsseldə Avropa Komissiyasının prezidenti Ursula von der Leyen ilə Çin prezidentinin virtual zirvə görüşü baş tutub.**

"Şərq" "CNN"ə istinadən xəbər verir ki, həmin görüşdən sonra mətbuat konfransı keçirilib. Komissiya rəsmisi Kiyevə səfər edəcəyini bildirib.

Leyenin sözçüsü Erik Mamer bu barədə açıqlama verib:

"Şənbə günü Varşavada "Ukrayna üçün ayağa qalx" adlı tədbir keçiriləcək. Avropa Komissiyasının rəhbəri Ursula von der Leyen və Aİ-nin xarici əlaqələr üzrə rəhbəri Xosep Borrell həmin iclasdan əvvəl Zelenski ilə görüşəcək".

*Qeyd edək ki, ötən həftə Avropa Parlamentinin prezidenti Roberta Metsola V.Zelenski ilə görüşmək üçün səfər edib, parlamentin xüsusi iclasında çıxış edib. Ukrayna lideri onun ziyarətini alqışlayıb, bunu ölkə üçün "vacib an" adlandırıb.*

**Cəmilə Əzim**

# Cənubi Qafqazda baş verən proseslərdən də danışdılar

## Paşinyan ABŞ dövlət katibi ilə Brüsseldə gözlənilən görüşü müzakirə edib





**Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ dövlət katibi Entoni Blinken Brüsseldə keçiriləcək üçtərəfli görüşü müzakirə ediblər.**

"Report" xəbər verir ki, bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb.

Baş nazir və ABŞ dövlət katibi telefon danışığı zamanı Ermənistanla Azərbaycan arasında sərhədin demarkasiyası və delimitasiyası, regionda kommunikasiyaların açılması imkanları, həmçinin Ermənistan və Türkiyə arasında dialoqla bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər Cənubi Qafqazda baş verən proseslərə toxunublar və regional sabitliyin, sülhün təmin edilməsinin vacibliyini qeyd ediblər.

Həmçinin beynəlxalq platformalarda əməkdaşlıq məsələləri, eləcə də Ukraynadakı vəziyyət müzakirə edilib.

*Qeyd edək ki, aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Avropa Şurasının Prezidenti Şarl Mişelin birgə görüşü keçiriləcək.*

# Dəyişikliklər qəbul edilib

## Həqiqi hərbi xidmətə könüllü daxil olanlar icbari narkoloji müayinədən keçəcək



**Həqiqi hərbi xidmətə könüllü daxil olanların və kadr-zabit heyətinə könüllü daxil olanların icbari narkoloji müayinədən keçməsi nəzərdə tutulur.**

Bu barədə məsələ parlamentin bu gün keçirilən iclasında birinci oxunuşda müzakirəyə çıxarılan "Narkoloji xidmət və nəzarət haqqında" və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihəsində əksini tapıb.

Qeyd edilib ki, "Narkoloji xidmət və nəzarət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" qanun layihəsində dəyişikliklər, narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə hazırlanıb.

Hər iki sənəddə müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslərin, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların və kadr zabit heyətinə könüllü daxil olanların icbari narkoloji müayinədən keçməsi məsələlərinin hüquqi əsasları müəyyən olunub.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq qəbul edilib.

# "Azərbaycanla Türkiyə xarici siyasətdə koordinasiyalı fəaliyyət göstərir"

## Məhəmməd Əsədullazadə: "Əsas müzakirə mövzusu Brüssel görüşü və Ermənistanın görüşdən sonra hansı mövqe sərgiləyəcəyi ətrafındadır"



**Ceyhun Bayramov ilə Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Bu barədə Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb. Bildirilib ki, aprelin 5-də Azərbaycan Respublikası Xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının Xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon əlaqəsi olub.**

Tərəflər bölgədə mövcud olan vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, eləcə də Ukraynadakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**Nazirlər arasında baş tutan telefon danışığını "Şərq" şərh edən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Türkiyə ilə Azərbaycan xarici siyasət məsələlərində kordinasiyalı fəaliyyət göstərirlər:**

"Təbii ki, Ermənistanla Azərbaycan münasibətlərin normallaşdırılması istiqamətində məsləhətləşmələr həyata keçirir. Ermənistan-Türkiyə münasibətlərinin normallaşması haqqında da tərəflər fikir mübadiləsi aparır. Məhz Brüssel görüşü ərəfəsində də bu kimi danışıqların aparılması əsasən Brüssel görüşünə həsr olunub. Təbii ki, burada Ukrayna məsələsi də müzakirə predmetidir. Çünki Rusiya-Türkiyə münasibətləri də bu məsələdə müəyyən dərəcədə Azərbaycan-Rusiya əlaqələrinə təsir edir. Buna baxmayaraq, əsas müzakirə mövzusu Brüssel görüşü və Ermənistanın görüşdən sonra hansı mövqe sərgiləyəcəyi ətrafındadır".

**Politoloq hesab edir ki, Bakı ilə Ankaranın qətiyyətli mövqeyi axır ki, Ermənistanın daha da praqmatik mövqe sərgiləməsinə gətirib çıxaracaq:** "Geosiyasi proseslər, hərbi-siyasi qarşıdurmalar deməyə əsas verir ki, Ankara ilə Bakı ikitərəfli əlaqələri daha da möhkəmləndirəcək. Birgə danışıqlar müsbət əhəmiyyət kəsb edir".

**Çimnaz**



### Azərbaycanla İsrail arasında əməkdaşlığa dair iki sənəd imzalanıb

**Azərbaycanla İsrail arasında əməkdaşlığa dair iki sənəd imzalanıb.**

Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb. Nazir, Azərbaycanın Dövlət Vergi Xidməti ilə İsrailin kibertəhlükəsizlik sahəsində fəaliyyət göstərən "Rayzone Group" şirkəti və "Azərbaycanın Meliorasiya və Su Təsərrüfatı" ASC ilə İsrailin su resurslarının idarə edilməsi sahəsində ixtisaslaşmış "Mekorot" şirkəti arasında sənədlərin imzalandığı bildirib. "İmzalanmış sənədlər İsrailin qabaqcıl təcrübəsinin ölkəmizə transferi, texnoloji imkanların genişləndirilməsi, innovativ alətlərin tətbiqi üzrə yeni əməkdaşlıq platforması yaradacaq və hər iki tərəf üçün faydalı olacaq", - M. Cabbarov qeyd edib.

### Bakıda yeni doğulan körpəsini öldürən qadın həbs edilib

**Bakıda yeni doğulmuş uşağını qəsdən öldürməkdə təqsirləndirilən qadın həbs edilib.**

Nizami rayon Məhkəməsində A.K (ad, soyad şərtidir) barəsində istintaq orqanının təqdimatına baxılıb. Təqdimat təmin edilib və A.K barəsində həbs qətimkan tədbiri seçilib. Baş Prokurorluğun mətbuat xidməti faktı APA-ya təsdiqləyib.

Qeyd edək ki, martın 31-də Nizami rayonu, Qara Qarayev prospekti 88 saylı binanın yaxınlığında polietilen sellofanda naməlum yeni doğulmuş qadın cinsli uşaq meyitinin aşkar olunması faktı üzrə Nizami rayon prokurorluğunda cinayət işi başlanıb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 04.04.2022-ci il tarixdə A.K.(ad şərtidir) Cinayət Məcəlləsinin 121-ci (ananın yeni doğduğu uşağı qəsdən öldürməsi) maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə şübhəli bilindiyi üçün tutularaq istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

# Bakı-Quba yolu təmir olunmur

**Vahid Əhmədov Baş nazirdən narazıdır**



“Baş nazirin, müavinlərinin, digər nazirlərin Qubada, Qusarda, Xaçmazda villaları var. Onlar gedəndə o yolu görmürlər?!”

İsmayıl Qocayev

**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. Cari məsələlərlə bağlı çıxış edən deputatlar bəzi problemləri gündəmə gətiriblər. Millət vəkili Vahid Əhmədov növbəti dəfə Bakı-Quba yolunun bərbad vəziyyətdə olmasından danışıb.**

Deputat xatırladıb ki, Azərbaycan hökumətinin hesabatında Bakı-Quba yolu ilə bağlı məsələnin həllini tapması ilə bağlı məsələ qaldırıb. V.Əhmədov baş nazir və digər şəxslərlə iclasdan sonra da görüşdüyünü açıqlayıb: "Bir daha bu tribunadan baş nazirə müraciət edirəm ki, ya yolun təmiri, ya da alternativ yolun çəkilməsini təmin etsin. Mən Qubada idim, sakinlər artıq bu yoldan istifadə edə bilmirlər. Baş nazirin, müavinlərinin, digər nazirlərin Qubada, Qusarda, Xaçmazda villaları var. Onlar gedəndə o yolu görmürlər?! Məsələ belədir ki, ümumiyyətlə, Prezidentə çıxmadan Azərbaycanda bir sıra məsələləri həll etmək mümkün deyil". V.Əhmədov nəzərə çatdırıb ki, bu yola alternativ, pullu yol çəkilir: "Lakin bu yol əvvəlki yolu əvəz etmir. Ona görə də insanlar əvvəlki yolun təmir edilməsini istəyirlər. Yeni çəkilən alternativ yol birbaşa Xaçmaza və sərhəd buraxılış məntəqəsinə gedir. Əgər dövlətin baş naziri, onun birinci müavini məsələni bilirsə, ancaq həll etmirsə, məcbur oluram ki, cənab Prezidentə müraciət edim".

**“Ölkəyə gələnlərə deyirlər ki, qayıt, testi İstanbulda ver”**

**Deputat Fazil Mustafa turizm sahəsində müşahidə etdiyi neqativ məqamlardan söz açıb. Parlament üzvü vurğulayıb ki, ölkəyə gələnləri test verməmdiyi üçün geri qaytarırlar:** "Deyirlər qayıt get, testi İstanbulda ver. Niyə? Hava limanında 10 metr aralıda test vermək mümkündür axı? Yerində olmayan məmurlar çoxdur".

**“Satışda vaxtı keçmiş qida məhsulları və dərmanlar var”**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev vaxtı keçmiş qida məhsullarının və dərman preparatlarının olduğunu bildirib.** Deputat qeyd edib ki, bizim üçün ən vacib məsələ iqtisadi artım, inflyasiya ilə mübarizə və sosial problemlərin təzliklə həll olunmasıdır: "Ticarət şəbəkələrində kifayət qədər vaxtı keçmiş qida məhsulları satılır. Aidiyyəti qurum bu məsələdə işləyir. Amma elə məsələlər var ki, dövlət bunu nəzarətə götürməlidir. Bu məsələyə dövlətin nəzarəti yüksək olmalıdır. Digər tərəfdən, bizdə satışda vaxtı keçmiş dərmanlar və onların tərkibləri barədə ciddi nəzarətə ehtiyac var. Dərmanların həm qiyməti, həm də keyfiyyətinə nəzarət artırılmalıdır. Başqa məsələ xaricdə olan tələbələrdir. Bu tələbələrin ölkəyə qayıtmasına kömək etmək lazımdır. Onlar Azərbaycan vətəndaşıdır. Sonda isə istərdim ki, icbari tibbi sığorta ilə bağlı dinləmə keçirilsin". Sədr Sahibə Qafarova isə bildirib ki, belə bir dinləmə keçiriləcək: "Artıq icbari tibbi sığorta ilə bağlı dinləmə keçiriləcəyini bilirik".

**“Köhnə neft yataqları ətrafındakı göllər radiasiya mənbəyidir”**

**Deputat Asim Mollazadə deyib ki, uzun illərdir Azərbaycanda istismar olunan neft yataqları ətraf mühitə böyük zərbə vurur.** O, köhnə neft yataqları ətrafındakı göllərin radiasiya mənbəyi olduğunu vurğulayıb: "Biz ətrafa radiasiya saçan bu gölləri görəndə anlayırıq ki, ətraf mühitin bərpası üçün böyük işlər görməliyik. Sovet dövründə bu istiqamətdə işlər görülməyib. Köhnə quyularda istifadə olunan sular çox təhlükəlidir. Buzovna, Zirə gələcəkdə Azərbaycanın kurort zonalarıdır. Ona görə istərdim ki, bu saziş üzərində hər zaman diqqət olsun. Bu diqqət həmin ərazilərdə ətraf mühitin qorunması ilə də bağlı olmalıdır".

**“Bu yataqlara investisiya qoyulmasa, məhv olacaq”**

**Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov da vurğulayıb ki, yataqlara investisiya qoyulmasa, məhv olacaq:** "Dünyadakı alternativ və bərpaolunan enerjiyə 450 milyard ABŞ dollarından çox vəsait ayrılır. 2030-cu ildən sonra bütün maşın istehsal edən firmalar enerji ilə işləyən maşınlar istehsal edəcək. Bir sözlə, ona kimi biz neftlə bağlı əlimizdə olan fürsətləri dəyərləndirməli, bu yataqlardan istifadə etməliyik".

**“İnvestisiya qoymaq istəyən sahibkarlar Gəncədə ərazi tapa bilmir”**

**Parlament üzvü Naqif Həmzəyev isə bəyan edib ki, Gəncəyə investisiya qoymaq istəyən sahibkarlar ərazi tapa bilmirlər.** Onun sözlərinə görə, bundan öncə özəlləşdirilmiş əmlaklar məsələsinə də baxılmalıdır: "Vaxtilə fabrik, zavod olan ərazilər özəlləşdirilmədən sonra bu gün təyinatı üzrə fəaliyyət göstərmir. Bu məsələlər araşdırılmalıdır".



**Azərbaycan və Ermənistan liderləri bu gün Brüsseldə yenidən bir araya gələcək. Dünyanın diqqət mərkəzində olan görüş sözügedən tarixdə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla üçtərəfli formada baş tutacaq. Son üç ayda Azərbaycan və Ermənistan liderləri dördüncü dəfə üz-üzə gələcək.**

# "Brüssel görüşündə ərazi güzəştindən söhbət gedə bilməz"

## Həşim Səhrablı: “Tərəflər sülh müqaviləsi imzalamayacaq, lakin bu istiqamətdə ciddi addımların atılması haqda razılıq əldə edilməsi mümkündür”

Görüşdən öncə həm Ermənistan, həm də Azərbaycan tərəfdən optimist fikirlər səsləndirilir. Rəsmi Bakı sülh müqaviləsinin təməllərini təşkil etmək üçün 5 prinsip açıqlayıb. Bununla bağlı rəsmi İrəvandan etiraz gəlməyib.

*İ.Əliyevlə N.Paşinyanın Brüssel görüşündən nələr gözlənilir?*

**”Şərq”in sualını cavablandıran hərbi-siyasi ekspert Həşim Səhrablının sözlərinə görə, liderlərin görüşündə konkret məsələlər ətrafında müzakirələr aparılacaq:** ”Ölkələrarası böhranı, problemi aydınlaşdırmaqdan ötrü ölkələrin xarici işlər nazirləri, yaxud ikinci, üçüncü dərəcəli siyasətçilərin qurduğu komissiyalar müzakirəni reallaşdırır.

Vətən müharibəsindən sonra Azərbaycanın qətiyyətli qələbəsi artıq məsələni diplomatik sahədə konkret məcraya daşıyır. Azərbaycan tərəfi Ermənistana 5 baza prinsipi təklif etmişdir.

Rəsmi İrəvan müəyyən müsbət ifadələr söyləyir. 6 apreldə tərəflər sülh müqaviləsi imzalamayacaq, lakin bu istiqamətdə ciddi addımların atılması haqda razılıq əldə edilməsi mümkündür. Növbəti görüşlər üçün effektiv zəmin hazırlana bilər. Ərazi problemləri tam həllinə qovuşmayıb”.

**Ekspert bildirib ki, Ermənistan tərəfi Qarabağa ərazi iddialarının üzərində dayanır:**

”2020-ci ildən əvvəlki qədər olmasa da, ”erməni dövləti”nin qurulması kimi bəyanatları görürük.

Azərbaycan tərəfi birmənalı şəkildə mövqeyini irəli sürüb.

Ərazi güzəştindən söhbət gedə bilməz.

Ermənistanın da qısa zamanda sözügedən ərazilərdən imtina edəcəyini gözləmək sadəlövhlükdür.

Rəsmi İrəvan buna can atsa da, cəmiyyətdəki siyasi zəmini nəzərə alaraq qısa müddətdə gerçəkləşdirməsi imkansızdır.

Ermənistan siyasi elitası, sosial təbəqəsi belə Qarabağ məsələsində güzəştə gedilməməsinin tərəfdarıdırlar.

N.Paşinyanın Azərbaycanla münasibətləri bərpa etməsi üçün Qarabağdan qəti imtina etməsi gözlənilmir”.

Aygün Tahir

# ABŞ və Fransanın arzusu gözündə qalacaq

## Xankəndi də daxil bütün ərazilərimizdə sülhün qarantı Azərbaycan dövləti və ordusudur



“Bir sıra dövlətlər Qafqazda və Azərbaycanda itirdikləri mövqeləri geri qaytarmaq üçün ən kiçik toqquşmalardan istifadə etməyə hazırdırlar”

**“Amerika Dövlət Departamenti və bir sıra konqresmenin verdikləri açıqlamaları qəbuledilməz sayırıq”. Bunu Milli Məclisin iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib. Komitə rəhbəri bildirib ki, torpaqlarımızda ikinci ölkənin silahlı qüvvələrinin yolverilməzliyi dəfələrlə bəyan edilib.**

Deputat bəyan edib ki, Xankəndi də daxil bütün ərazilərdə sülhün qarantı Azərbaycan dövləti və ordusudur: "Ona görə də Xocalıya, Əsgərana, yaxud Kəlbəcərə yaxın ərazilərdə yeni Ohanyan səddi, yaxud təmas xətti düzəltmək mümkün deyil. Beləliklə, son hadisələr, iki il əvvəlki savaşın davamı sayıla bilməz, çünki prezidentin "müharibə bitib" bəyanatı qüvvədədir və belə lokal gərginliklər "sülh müqaviləsi"nin imzalanmamasının birbaşa nəticəsidir! Əməliyyatın İrəvan tərəfindən "ermənilərin regiondan tam etnik təmizlənməsi" planı adlandırılması həqiqəti əks etdirmir. Çünki Ordumuz mülki ermənilərlə savaşmır, digər tərəfdən erməni silahlı qüvvələrinin Qarabağdakı qalıqları nə ordu sayıla bilər, nə də yeni ərazi işğalları həyata keçirməyə qadir olan qüvvə. Azərbaycan ərazisində yalnız bir ordu var! Ona görə də sülh arzulayan erməni Qarabağda dinc yaşamaq istəyirsə, silahını öz millətçi-faşist qüvvələrinə qarşı çevirsin! Ölkəmizi Rusiya sülhməramlı qüvvələrlə toqquşdurmağa və belə planın arxasında gizlənməyə çalışanlar açıq görünür. Lakin Azərbaycan dövləti sülhyaradıcı qüvvələrə dəqiq məsuliyyət zonası və hüquqi çərçivə yaratdığından imzaladığı prinsiplərə sadiqdir".

**Z.Oruc vurğulayıb ki, geniş auditoriyası olan xarici media orqanlarında Rusiya-Ukrayna savaşı ilə Qarabağdakı hadisələr arasında paralellər aparılması 44 günlük müharibədən sonra regiondan çıxarılmış qüvvələrin daha çox işinə yarayır:** "90-cı illərdən fərqli olaraq, xalqımız belə senariləri görür və 44 günlük savaşın nəticəsində kənarda qalan dövlətlərin bu yolla bölgəyə qayıtmasına qətiyyətlə qarşıdır. Dünya tarixində ən böyük absurd, Minsk qrupunun varlığı və onun üzvlərinin son hadisəyə eyni mövqedən verdiyi qiymətdir. Necə ola bilər ki, yüzdən artıq dövləti Moskva əleyhinə birləşdirməyi bacaran və bütün iqtisadi, siyasi, hərbi təşkilatlardan Rusiyanı çıxaran Amerika və Fransa dövlətləri Fərrux kəndi kimi dünya siyasəti üçün çox kiçik hadisədə vahid cəbhədən çıxış edirlər. Yəqin, Qarabağa aid olmayan Minsk qrupu Amerika və Rusiyanın tək ittifaqı kimi dünya tarixində əbədi qalacaq!".

Komitə rəhbərinin sözlərinə görə, hazırkı Ukraynada savaşın kökləri SSRİ-nin dağılması zamanı Qarabağdan başlayan hadisələrə düzgün qiymət verilməməsi təşkil edir: "Təəssüf ki, 44 günlük müharibədən sonra ərazi bütövlüyünü təmin etmiş Azərbaycana eyni yanaşmanı tətbiq edirlər. Bir sıra dövlətlər Qafqazda və Azərbaycanda itirdikləri mövqeləri geri qaytarmaq üçün ən kiçik toqquşmalardan istifadə etməyə hazırdırlar. Biz dünyaya deyirik, Ukraynaya göstərdiyiniz total dəstəyi ölkəmizə münasibətdə də təkrarlamağınızı gözləmirik. Lakin heç olmasa, qarşımızda durmayın. Bu, hüquqa və ədalət prinsiplərinə dair bəyanatlarınızı kağız parçasına çevirir".

İsmayıl

İsmayıl Qocayev

**Avropa Şurasının (AŞ) Azərbaycan üzrə yeni Fəaliyyət Planı təqdim olunub. AŞ-nin baş katibi Mariya Peyçinoviç Buriç deyib ki, plan Azərbaycanla birlikdə hazırlanıb və monitorinq qruplarının hesabatlarına əsaslanıb. Planın əsas məqsədi Azərbaycan xalqının demokratik cəmiyyətdə yaşaması və demokratik təsisatların inkişafını sürətləndirməkdir:**



# Avropanın demokratik dəyərlərinin ən yaxşılarını qanunlarımıza salmalıyıq

## Azərbaycan demokratik institutlardan kənarda yaşaya, fəaliyyət göstərə bilməz

"Bu, təqdim olunan üçüncü fəaliyyət planıdır. Məqsədimiz həqiqi nəticələrin əldə olunmasıdır. Əvvəlki planların reallaşdırılması istiqamətində xeyli addımlar atılıb".

Qeyd olunub ki, planların icrası ilə bağlı 1000 azərbaycanlı hüquqşünas Avropa hüquqlarının mənimsənilməsi və öyrənilməsində təcrübəsini artırıb, təlimlərdə iştirak edib. Bundan başqa, Azərbaycan Lanzarota Konvensiyasını ratifikasiya edib. Vətəndaş cəmiyyətinin rolu artırılıb, qanunun aliliyi sahəsində böyük irəliləyiş əldə olunub. Ədliyyə Akademiyasında hakim və məhkəmə işçiləri üçün təlimlər təşkil olunub. 500 jurnalist və vətəndaş cəmiyyətinin nümayəndəsi gender bərabərliyi sahəsində təlimlərdə iştirak edib. Bir sözlə, müsbət nailiyyətlər var. Lakin müəyyən sahələrdə hələ də problemlər qalmaqdadır. Fəaliyyət planı yeni sahələri də əhatə edəcək. Bura, süni zəka, ekologiya və iqlim dəyişikliyi, insan alveri, narkotik vasitələrdən sui-istifadə və onların satışı ilə mübarizə sahələri daxildir. Təqdimatda çıxış edən Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin beynəlxalq təşkilatlarla iş sektorunun müdiri Həbib Mikayılı yeni Fəaliyyət Planının Avropa Şurası-Azərbaycan arasında əməkdaşlığa təkan verəcəyini bildirib. O deyib ki, baş katibin Azərbaycana səfəri AŞ-nin Azərbaycanla əlaqələrinə önəm verdiyini göstərir. H.Mikayılının sözlərinə görə, insan haqları ilə bağlı problemlər hər ölkədə var və bu sahədə Azərbaycan addımlar atır. Ədliyyə naziri Fikrət Məmmədov bəyan edib ki, yeni Fəaliyyət Planı 22 prioriteti əhatə edir. Azərbaycanın AŞ-lə əməkdaşlığı çərçivəsində reallaşan islahatlara toxunan Fikrət Məmmədov deyib ki, məhkəmə sahəsində mühüm işlər görülüb. Hakim korpusu 75 faiz yenilənib, gənc kadrlar cəlb olunub, gender bərabərliyi istiqamətində irəliləyiş olub: "Bakıda və müxtəlif regionlarda 35 məhkəmə üçün yeni binalar istifadəyə verilib, bu binalar elektron avadanlıqlarla təchiz olunub".



“Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən Avropa Şurası ilə əməkdaşlıq inkişaf etdirilməlidir”

**Yeni Fəaliyyət Planı ilə bağlı “Şərq”ə danışan sabiq millət vəkili, hüquqşünas Çingiz Qənizadə deyib ki, Azərbaycan Avropa Şurasına daxil olarkən maksimum və minimum proqramların reallaşması nəzərdə tutulmuşdu.** Ekspertin sözlərinə görə, hesabalamalar göstərirdi ki, Azərbaycan təzliklə Avropa məkanına daxil olmalı, Qərb institutlarının tərkibinə çevrilməlidir: "Təbii ki, ilkin dövrdə Avropa Şurasının müəyyən tələbləri var idi. Ona görə də ölkədə bir sıra qanunların Avropa standartlarına uyğunlaşdırılması üçün işlər görülməliydi. Ötən müddət ərzində mühüm işlər həyata keçirildi və ciddi nəticələr əldə olundu. 20 ildən artıqdır Avropa məhkəməsinin subyektlərindən biriyik. Avropa Şurasında təkcə hüquqşünaslar deyil, çoxsaylı QHT nümayəndələri, ayrı-ayrı dövlət strukturlarının əməkdaşları da müəyyən təcrübələr keçir. Hesab edirəm ki, əməkdaşlığı davam etdirilməlidir. AŞ ilə Azərbaycan arasında yeni fəaliyyət planının imzalanması müsbət addımdır. İndiyədək Avropanın demokratik dəyərlərinin ən yaxşılarını qanunlarımıza şamil etmişik və buna davam etməliyik. Aydın məsələdir ki, demokratik institutlardan kənarda yaşaya, fəaliyyət göstərə bilmərik. Düzdür, müəyyən dövrlərdə aramızda narazılıq olub. Bəzən AŞ-nin ziddiyyətli mövqeyi ilə də qarşılaşmışıq. Amma Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən Avropa Şurası ilə əməkdaşlıq inkişaf etdirilməlidir”.

# Vətəndaşların şikayətlərini bələdiyyələr dinləyib, yerindəcə həllinə nail olmalıdır



**Azərbaycanda vahid bələdiyyə sistemi yaradılması məsələsi yenidən parlamentin gündəminə gətirilib. Milli Məclisin Regional siyasət komitəsinin sədri Siyavuş Novruzovun fikrincə, ilkin olaraq, Gəncə, Sumqayıtda şəhər bələdiyyələrinin vahid bələdiyyə sistemi yaradılmalı, əgər bu effektli olarsa, Bakı Böyük Şəhər Bələdiyyəsinin yaradılması məsələsinə baxılmalıdır.**

Bələdiyyələrin birləşdirilməsinin vacibliyinə diqqət çəkən deputat hesab edir ki, bələdiyyə üzvlərinin sayı azaldılmalıdır: ”Həmçinin bələdiyyə sahəsində kifayət qədər qanun var. Lakin onların hamısının Bələdiyyə məcəlləsi şəklində birləşdirilməsi daha məqsədəuyğun olardı”.

Qeyd edək ki, Azərbaycanın Avropa Şurasına üzv qəbul edildiyi vaxt üzərinə götürdüyü öhdəliklərdən biri də məhz iri şəhərlərdə böyük şəhər bələdiyyəsinin yaradılması ilə bağlıdır. Ta o zamanlardan bu məsələ ölkədə ciddi müzakirə predmetinə çevrilib. Vahid bələdiyyə sisteminin yaradılmasını təhlil edən ekspertlər də böyük şəhər bələdiyyəsinin yaradılmasını dəstəkləyir. Amma hansısa qurumlar bu sistemin yaradılmasında maraqlı deyil. Əks halda məsələ bu qədər uzanmaz və müsbətə doğru bir irəliləyiş hiss olunardı.

**İqtisadçı-ekspert Natiq Cəfərlinin ”Şərq”ə açıqlamasında deyib ki, vahid bələdiyyə sistemi ilə bağlı real addımların atılması üçün ortada siyasi iradə olmalıdır.** Mütləq dövlət başçısı səviyyəsində qərar verilməli və

> “Mütləq dövlət başçısı səviyyəsində qərar verilməli və ölkədə Konstitusiya islahatları aparılmalı “Böyük Şəhər Bələdiyyələri” ilə bağlı məsələ də orada ehtiva olunmalıdır”

ölkədə Konstitusiya islahatları aparılmalı ”Böyük Şəhər Bələdiyyələri” ilə bağlı məsələ də orada ehtiva olunmalıdır. Hətta 44 günlük qələbəmiz belə yeni Konstitusiyada öz əksini tapmalıdır. İnzibati ərazi quruluşunun dəyişdirilməsi, yaradılan 14 iqtisadi rayonun inzibati ərazi vahidinə çevrilməsi, icra hakimiyyətlərinin ləğv edilməsi, bələdiyyə institutlarının gücləndirilməsi və səlahiyyətlərinin artırılması, böyük şəhər bələdiyyələrinin yaradılması və onların səlahiyyətlərinin müəyyənləşdirilməsi kimi məsələlər yeni Konstitusiya islahatları ilə daha tez və effektiv həll oluna bilər. Çünki bu orqanlar Konstitusiya ilə təsbit olunub. Qanunla nəyisə dəyişmək mümkün deyil. Ona görə də bunu əsas götürərək ümumilikdə yeni bir Konstitusiya layihəsinin yaranmasına ehtiyac var. Ən azından mövcud Konstitusiyamızda köklü dəyişikliklər edilməlidir.

Eyni zamanda proporsional seçki sistemi kimi çoxdandır öz həllini gözləyən digər məsələlər də yeni Konstitusiyada öz həllini tapa bilər”.

**Azərbaycanda dünya standartlarına uyğun idarəetmə sisteminin formalaşdırılmasına çox ciddi ehtiyac olduğunu vurğulayan N.Cəfərli məsələnin yenidən parlamentdə gündəmə daşınmasını optimist hal kimi qiymətləndirib:** ”Demək ki, real addımların atılması ilə bağlı qərarların verilməsi istisna deyil. İctimai təşkilatlar, siyasi partiyalar, media, vətəndaş cəmiyyətləri də bu müzakirələrin davamlı olmasında və Azərbaycanda yeni idarəetmə sisteminin formalaşmasında maraqlı olmalıdır. Sadaladığımız məsələlər öz həllini tapsa ölkəmiz kifayət qədər ciddi bir resurs qazanacaq. Bu da öz növbəsində iqtisadi və sosial yüksəlişə rəvac verəcək”.

Ekspertin sözlərinə görə, yerli özünüidarətmə sisteminin gücləndirilməsi, bələdiyyələrin səlahiyyətlərinin artırılması mərkəzi hökumətin də yükünü azaldacaq: ”Bu gün vətəndaşlar üzləşdikləri sosial-iqtisadi problemlərlə bağlı hansı quruma müraciət edəcəyini bəzən anlaya bilmir.

Bakıya yazır, ölkə başıçısına müraciət edir. Halbuki, prezident ölkə əhəmiyyətli işlərlə məşğul olmalı, vətəndaşların şikayətlərini isə bələdiyyələr dinləyib yerindəcə həllinə nail olmalıdır”.

**Şəymən**



# Ətin qiymətinin bahalaşacağı da gözlənilir

## Nazim Bəydəmirli: “Ət istehsalı üçün lazım olan yem məhsulları Rusiya və Ukraynadan gətirilir”

**24 fevralda başlayan Ukrayna-Rusiya müharibəsi iqtisadi vəziyyətə öz təsirini göstərdi. Son günlər ətin qiymətinin bahalaşacağına dair iddialara yol açıb. Azərbaycana idxal olunan dondurulmuş mal əti əsasən Ukraynanın payına düşür. Quş əti də ən çox bu ölkədən idxal edilir.**



Qeyd edək ki, qlobal miqyasda ərzaq bir il əvvəlkindən iyirmi faiz daha bahadır, bu ilin yanvarından isə dünyada qiymətlər dörd faiz artıb.

Azərbaycanda da ət bahalaşması müşahidə edilə bilərmi?

**”Şərq”in sualını cavablandıran iqtisadçı-alim Nazim Bəydəmirlinin sözlərimə görə, istənilən halda qiymət artımı gözləniləndir:**

”Qiymət artımını şərtləndirən xarici və daxili faktorlar mövcuddur. Bunlar istehlakçıları əndişəyə salır. Bazar instrumentləri işləmir. Monopoliya bazarda optimal qiymət müəyyənləşdirməyə imkan vermir. Torpaq sahələri, örüşlər, biçənəklər dövriyyədən çıxarıldı. Azərbaycanda taxılın əkilməsinə təşəbbüs göstərilmir. Ətə ehtiyac yüksək faizlə qarşılanmır. Müxtəlif rəqəmlər deyilir. Ancaq gömrük orqanlarının statistikasına baxanda görürük ki, diri heyvanlar idxal olunur. Ət istehsalı üçün lazım olan yem məhsulları Rusiya və Ukraynadan gətirilir. Ətin bahalaşması da qaçılmazdır”.

**Aygün Tahir**



# Böyük şəhərlərdə vahid bələdiyyə sistemi qurulmalıdır

## Millət vəkilləri hesab edir ki, bələdiyyələrə konkret səlahiyyət vermək lazımdır

**İsmayıl Qocayev**

**Parlamentin dünənki iclasında bələdiyyələrin fəaliyyətinə dair illik məruzə müzakirə olunub və səsə qoyularaq qəbul edilib. Ədliyyə nazirinin müavini Vilayət Zahirovun təqdim etdiyi məruzədə qeyd edilib ki, keçən il bələdiyyələrin 90 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib.**

Həmin protokollar üzrə 75 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib, 5 inzibati xəta protokoluna xitam verilib, 10 protokol isə baxılmaqdadır. Məruzədə bildirilib ki, 2021-ci ildə 80 min bələdiyyə aktı üzrə inzibati nəzarət həyata keçirilib. 3 mindən çox akt nazirliyin təklifləri əsasında ləğv edilib və ya dəyişdirilib, habelə qanunsuz verilmiş 9 min hektar torpaq sahəsi geri qaytarılıb. Pozuntulara yol verən 80-dək bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib.

**“Təklif edirik ki, bələdiyyələrin sayı azaldılsın”**

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov böyük şəhər bələdiyyələrinin yaradılmasını təklif edib. Komitə sədri bildirib ki, 80 milyon əhalisi olan Türkiyədə 1397 bələdiyyə var ki, onların da 30-u böyük şəhər bələdiyyəsində birləşib. Deputat deyib ki, Azərbaycanda 1606 bələdiyyə var:** ”Hələ işğaldan azad edilmiş ərazilərdə bələdiyyələr formalaşsa, 500-ə yaxın yeni bələdiyyə olacaq. Ona görə də təklif edirik ki, say azaldılsın. Bələdiyyə üzvlərinin sayının azaldılmasını da təklif edirik. İlkin olaraq, Gəncə və Sumqayıtda şəhər bələdiyyələrinin vahid bələdiyyə sistemi yaradılmalıdır. Effektli olarsa, Bakı Böyük Şəhər Bələdiyyəsinin yaradılması məsələsinə baxıla bilər. Böyük şəhərlərdə vahid bələdiyyə sistemi qurulsa, yaxşı olar”. S.Novruzov onu da qeyd edib ki, bələdiyyə torpaqlarının xəritəsi bir çox rayonlarda bələdiyyələrə təqdim olunmur: ”Buna görə də bələdiyyələr bu torpaqlardan vergi toplaya bilmir”.

**“Ölüləri, qəbiristanlığı bələdiyyəyə vermək istəmirlər”**

**Millət vəkili Fazil Mustafa isə bildirib ki, ölkədə bələdiyyə fəaliyyəti yoxdur, heç bir səlahiyyəti olmayan qurum statusundadırlar. Deputata görə, 23 ildir bələdiyyələrə münasibət dəyişmir, sənədləşmə işləri başa çatmır:** ”Bələdiyyə sistemi inkişaf etmir. 2 il bundan qabaq Nazirlər Kabineti qərar qəbul edib, amma dirilər bir tərəfə, ölüləri, qəbiristanlığı bələdiyyəyə vermək istəmirlər. Bölgələrdə bələdiyyə sədrlərini tanıyan yoxdur, bunlara konkret səlahiyyət vermək lazımdır. Yerli əhalinin ictimai nəzarətinin zəif olduğu deyilir. İş yoxdursa, əhali nəyə nəzarət edəcək?! Bələdiyyə üçün pul qazanmağa heç bir yerdən imkan vermirlər. Digər tərəfdən, peşəkar kadr çatışmazlığı var. Əlbəttə, hansı peşəkar kadr gedib aşağı səviyyədə işləyə bilər?! Bələdiyyələrin birləşdirilməsinin tərəfdarıyam. Rayonların özündə də bələdiyyələr birləşdirilməlidir. Bələdiyyəyə xəritələr də verilmir. Bələdiyyə məsələsinə ciddi yanaşmalıyıq. 23 il keçib və biz bələdiyyəni ildən-ilə öldürürük. Ona görə də vətəndaşlar bütün gün Milli Məclisin, Prezident Administrasiyasının qarşısında dərdlərinə çarə tapa bilmirlər”.

**“Ciddi islahatlar aparılmalı, səlahiyyətlər bölüşdürülməlidir”**

**Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev bələdiyyələrin ölü doğulduğunu söyləyib. Komitə rəhbəri bəyan edib ki, əsas məqsəd bələdiyyələrin problemini həll etmək deyil:** ”Bu, məqsəd olsaydı, bələdiyyələrin səlahiyyəti müəyyən edilərdi. Yerli icra hakimiyyətləri də deyir ki, bizim nə səlahiyyətimiz var ki, onu da bələdiyyəyə verəsiniz?! Yerli icra hakimiyyəti orqanlarının səlahiyyətlərini də mərkəzi icra hakimiyyəti orqanları əlindən alır. Ciddi islahatlar aparılmalı, səlahiyyətlər bölüşdürülməlidir. O vaxt Avropa təşkilatları bizdən tələb edirdi ki, seçkili yerli icra orqanları olsun. Buna görə də Azərbaycanda bələdiyyələr yaradıldı. Hökumət bu istiqamətdə ciddi islahatlara, hətta Konstitusiya islahatlarına getməlidir. Bütün səlahiyyətlər mərkəzi icra hakimiyyətlərinin əlində cəmləşib. Problemin kökü bundan qaynaqlanır”.

**“Bələdiyyələrə ayrılan vəsait artırılmalıdır”**

**Millət vəkili Vüqar Bayramov isə büdcədən bələdiyyələrə ayrılan vəsaitin artırılmasını təklif edib. Deputat bildirib ki, keçən il bələdiyyələrin büdcəsinə torpaq və əmlak vergisindən 2020-ci il ilə müqayisədə 3.5 milyon manata daha çox vəsait daxil olub:** ”Bunun da 2.5 milyon manatı Bakıda fəaliyyət göstərən bələdiyyələrin payına düşür. Tendensiyanın müsbət olması təqdirəlayiqdir. Bununla yanaşı, yenə də əmlak vergisinin yığılmasında problemlər qalmaqdadır və bələdiyyələrin bu istiqamətdə fəaliyyətinin gücləndirilməsi vacibdir”. V.Bayramov deyib ki, bələdiyyələrin səlahiyyətlərinin və maliyyə imkanlarının genişləndirilməsi üçün bələdiyyələrin təmərküzləşməsi və birləşdirilməsi məsələsinə baxılması məqsədəuyğun olardı: ”Bu ilin dövlət büdcəsindən bələdiyyələrə 11 mln. manata yaxın vəsaitin ayrılması nəzərdə tutulur. Ölkədə 1 606 bələdiyyənin olduğu nəzərə alınsa, orta hesabla hər bələdiyyə illik 6 min 800 manat, aylıq isə 560 manat alacaq. Bələdiyyələrin kənar maliyyə mənbələrinin məhdud olduğunu nəzərə aldıqda, bu məbləğin az olması onların institut kimi formalaşması və inkişafını xüsusi təşviq etmir. Bu baxımdan, həmin vəsaitin məbləğinə baxılması və artırılması məqsədəuyğun olardı”.

# Başqa yol yoxdur

## Baş nazirin imzaladığı qərar təhlükələrin önlənməsi məqsədi daşıyır



**Elçin Bayramlı:** “Qərarı dəstəkləyirəm, amma iaşə obyektlərinin təhlükəsizliyinə cavabdeh qurumlar konkretləşdirilməlidir”

**Azərbaycanda ”Qazdan istifadə Qaydaları”nda dəyişikliklər edilib. Bu barədə Baş Nazir Əli Əsədov qərar imzalayıb. Yeni qərara görə, qaz qurğularına texniki baxış üçün tələb olunan sənədlərin siyahısı genişləndirilib.**

Belə ki, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən sənaye qaz qurğusunun istismarına icazə vermək üçün həmin qurğulara texniki baxış istehlakçıların təqdim etdiyi sənədlərlə yanaşı ərizə də təqdim edilməlidir. Bundan əlavə, həmin qaydalar edilən əlavəyə görə, Enerji Məsələləri Tənzimlənmə Agentliyinə sənədlər barədə məlumat əldə etmək üçün dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından istifadə etmək səlahiyyəti verilib. Bu mümkün olmadığı halda, həmin sənədlərin təqdim edilməsi ərizəçidən tələb olunur.

Ehtimal edilir ki, məlum dəyişikliyin edilməsinə aprelin 3-ü paytaxta gecə klubunda baş vermiş partlayışın da təsiri var. Partlayışa səbəb gecə klubunda qaz balonundan istifadənin olduğu bildirilir. Qərar ”daldan atılan daş” misalını xatırlatsa da, ”gec olsun, güc olsun”, məsəli də yerinə düşür. ”Qazdan istifadə qaydalarına dəyişiklik” kafe-restoran, gecə klubları, barlarda qeyri-standart qaz cihazlarından istifadənin önünü kəsəcəkmi?

**Sosioloq Elçin Bayramlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, bürokratiyanın əleyhinə olmasına baxmayaraq, bu qərara müsbət yanaşır:**

- Mən adətən sahibkarlara, ümumiyyətlə, vətəndaşlara yaradılan bürokratik əngəllərin həmişə əleyhinəyəm. Çünki yerli-yersiz problemlər yaradırlar. Lakin təhlükəsizlik məsələlərində, düşünürəm ki, başqa yol yoxdur. Paytaxtda istər iaşə obyektləri, istərsə də yaşayış binaları, mağazalar, marketlər, ticarət köşkləri bir-birinə o qədər sıx yerləşir ki, birində təhlükə yarananda, dərhal ətrafdakılara da sıçrayır. Biz bu cür halları tikinti materialları bazarında, pərakəndə satış bazarlarında da müşahidə etmişik. Yanğın dərhal digər obyektlərə keçir, ətrafdakılar da zərər görür. Bunun səbəbi odur ki, kim necə gəldi qaz, elektrik xətləri çəkib, necə gəldi istifadə edir, təhlükəsizlik qaydalarına riayət edilmir, standartlar pozulur. Ona görə də Baş nazirin imzaladığı qərar, əslində müsbətdir. Təhlükələrin önlənməsi məqsədi daşıyır. Mən bu qərarı dəstəkləyirəm. Ancaq qərar nəyəsə əsaslanmalıdır. İaşə obyektlərinin təhlükəsizliyinə cavabdeh qurumlar konkretləşdirilməlidir. Deyək ki, hər hansı obyektdə qaz qurğusundan istifadə edilirsə, onun standartlara uyğun olub-olmadığı ”Azəriqaz” tərəfindən yoxlanmalı, fəaliyyətə icazə verilməlidir. Əgər belə bir icazə yoxdursa və obyektdə hansısa qəza baş veribsə, o zaman biz vətəndaş cəmiyyəti olaraq sahibkarı müdafiə edə bilməyəcəyik. Çünki bu halda günahkar standartlardan kənar obyekt işlədən sahibkar olacaq. Yox əgər ”Azəriqaz” obyektdəki qaz cihazlarının işlədilməsinə icazə veribsə, o zaman biz dövlət qurumunu günahlandıra bilərik. Eyni məntiq Fövqəladə Hallar Nazirliyini də əhatə edir. Hadisə baş veribsə, günahkar mütləq olmalıdır. Qazdan istifadə ciddi məsələdir, cihazlar düzgün quraşdırılmalı, qaz xətləri müntəzəm yoxlanmalıdır. Qayda-qanun olmalıdır, standartlar dəqiq müəyyənləşməlidir.

**Məlahət Rzayeva**

# Buça qana bələnib

## Qərb və Rusiya bir-birini qətliamlarda suçlayır



**Kiyev vilayətinin Buça şəhərində çoxlu sayda dinc insanların qətlə yetirilməsi haqqında videogörüntülər yayılıb. Rəsmi Kiyev Buçadakı faciəvi hadisədə Rusiyanı günahlandırıb. Qətliamın Buçadan geri çəkilən Rusiya ordusu tərəfindən törədildiyini açıqlayıb. Rəsmi Moskva isə Kiyevin Buça ilə bağlı iddialarını feyk adlandırıb. Kreml Buçada baş verənlərdə Rusiyanın əlinin olmasını qəti şəkildə rədd edib.**

Ukrayna Prezidenti Vladimir Zelenski Buça şəhərini ziyarət edib. Ölkə rəhbəri işğalçıların etdiklərinə baxmağın çox ağrılı olduğunu deyib: ”Onlar hər bir hərbi cinayətə və torpağımıza gətirdikləri bütün acılara görə cavab verməli olacaqlar. Öldürülən ukraynalıların meyitlərini bir çox küçələrdən götürüblər. Lakin həyətlərdə, küçələrdə cəsədlər qalmaqdadır. Xüsusən ”uşaq” yazılmış avtomobillərdə güllə izləri görmək daha ağırdır. İşğalçıların etdikləri ilə bağlı yenicə araşdırmalara başlamışıq”. ABŞ Prezidenti Co Bayden Buçada baş verənləri soyqırım hesab etməkdən imtina edib. Bayden ”xeyr, məncə, bu, müharibə cinayətidir” deyib. Ukrayna lideri Vladimir Zelenski isə Buçadakı qətliamı soyqırım adlandırmışdı. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov isə deyib ki, Buçadakı hadisələr Rusiyanı təqsirli göstərmək məqsədi daşıyan təxribatdır. Onun sözlərinə görə, Buçadakı təxribat Rusiya hərbçiləri oranı tərk etdikdən sonra törədilib: ”Beynəlxalq humanitar gündəmdəki aktual məsələlərin ətraflı müzakirəsi Ukraynadakı vəziyyətə diqqət çəkdi. Rusiya tərəfi Kiyev vilayətinin Buça şəhərində baş verən hadisələrə ətraflı qiymət verib. Orada baş verənlərin Rusiya Silahlı Qüvvələrinin çıxarılmasından sonra törədilmiş cinayətlərdə Rusiyanı təqsirli göstərmək məqsədi daşıyan açıq təxribat olduğu vurğulanıb”. Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi, general-mayor İqor Konaşenkov da bildirib ki, Ukrayna hərbçiləri rusiyalı hərbçilərini mülki şəxslərə qarşı zorakılıqda ittiham etmək üçün yeni təxribatlar təşkil edib: ”Təsdiq olunmuş məlumata görə, aprelin 4-də axşam saatlarında Kiyevdən 23 kilometr şimal-qərbdə yerləşən Moşçun yaşayış məntəqəsində 72-ci Ukrayna Baş Psixoloji Əməliyyatlar Mərkəzinin hərbçiləri sonradan qərb mediası vasitəsilə yayılması üçün guya Rusiya Silahlı Qüvvələrinin zorakılıq hərəkətləri nəticəsində həlak olmuş mülki şəxslərin növbəti səhnə çəkilişini aparıblar”. O əlavə edib ki, Ukrayna güc strukturları Sumı, Konotop və digər şəhərlərdə analoji tədbirlər təşkil edib. Ekspertlər diqqətə çatdırıblar ki, dünya Rusiyanın Buçadakı qətliamından danışır, yəqin ki, Mariupolda bundan da dəhşətli mənzərələr var. Lakin Rusiyanın beynəlxalq məhkəmələrdə buna görə cəzalandırılacağı hələ də sual altındadır, çünki proses mürəkkəbdir. Rusiya Beynəlxalq Ədalət Məhkəməsinin yurisdiksiyasını dəstəkləməyib. Yəni veriləcək qərarlar Rusiya tərəfindən icra edilmir. Qərarın icrası BMT Təhlükəsizlik Şurasına həvalə edilsə belə, Rusiya veto qoymaq hüququndan istifadə edəcək. Cəza üçün Rusiyanın da qoşulduğu Soyqırımı Konvensiyası işləyə bilər. Bunu da dünya qəbul etmir. Məsələn, Bayden Buçada olanları soyqırımı yox, müharibə cinayəti adlandırır.

*"İttiham etmək asandır, əsas məsələ suçu isbat olunmuş qarşı tərəfi cəzalandırmaqdır"*

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ”Şərq”ə deyib ki, ötən dövr ərzində hər iki tərəf, həm Qərb ölkələri, həm də Rusiya bir-birini kütləvi qətliamlarda, soyqırımlarda ittiham ediblər. Analitikə görə, Rusiya da Qərbi bir çox cinayətlərin törədilməsinin əsas iştirakçısı sayır:** ”Suallar çoxdur. Özü qətliam və soyqırım törətməkdə suçlanan Qərbin başqa bir cinayətkarı - Rusiyanı ittiham etməsi hansı nəticələr verəcək? Qərbin ittihamları Putini mühakimə etmək üçün hansısa əsas yaradırmı? İttiham etmək asandır. Əsas məsələ suçu isbat olunmuş qarşı tərəfi cəzalandırmaqdır. Hazırda bunu reallaşdırmaq üçün imkanlar mövcud deyil. İndiki halda bu, sadəcə, informasiya savaşı sayılır. Həqiqətən də hibrid savaşda Ukraynanın bir sıra şəhərlərindəki cinayətlərin kimin tərəfindən törədilməsi maraq doğurur və ajiotaja səbəb olur. Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında ciddi maneələrlə üzləşdiyimizi hamı yaxşı bilir. Eyni məsələ Ukrayna üçün də keçərlidir. Bəli, Buçada insanlıq əleyhinə müharibə cinayətləri törədilib, qanlı əməllər var. Amma qarşı tərəfi ittiham etmək üçün beynəlxalq hüquq, insan haqlarının qorunması yetərli səviyyədə deyil”.

**İsmayıl Qocayev**



**Prezident İlham Əliyev İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib. Dövlət başçısı hərbi-texniki sahədə də iki ölkə arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb.**

# "İsraildə səfirlik açmasaq da..."

## Əziz Əlibəyli: “Əlaqələrimiz elə yüksək pillədədir ki, həmin yoxluğu hiss etmirik”

Prezident İlham Əliyev əlaqələrimizin inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diasporlarımızın rolundan danışıb, xalqlarımızın nümayəndələrinin əsrlər boyu birgə dostluq şəraitində yaşadıqlarını vurğulayıb, yəhudi icmasının üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etmələrinin və şücaət göstərməsinin ölkəmizdə ehtiramla keçirildiyini bildirib. Y.Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, ağıllı şəhər, energetika, su təchizatı və digər sahələrdə iştirak etmək istəklərini diqqətə çatdırıb.

Azərbaycanın biznes üçün çox yaxşı imicə sahibliyini vurğulayan İsrailin turizm naziri ölkəmizdə biznes fəaliyyəti üçün təhlükəsiz və təminatlı şəraitin mövcudluğunun İsrail şirkətləri üçün cəlbedici olduğunu söyləyib.

**Tərəflərin münasibətləri barədə ”Şərq”ə danışan Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəylinin sözlərinə görə, İsrail-Azərbaycan münasibətlərinin perspektivləri çox genişdir:**

”Həm təhlükəsizlik, həm kənd təsərrüfatı, həmçinin regional maraqlar, İsrailin neft, qaz sektorunda Azərbaycanla yüksək səviyyədə əməkdaşlığı, məhz təhlükəsizlik qayğıları bizi birləşdirir. Dünya səviyyəsində Azərbaycanın milli maraqlarının təmini, o cümlədən beynəlxalq nüfuzunun möhkəmləndirilməsi istiqamətində İsraillə birgə əməkdaşlıq müsbət nəticələr doğurur.

İsraildə səfirlik açmasaq da, əlaqələrimiz elə yüksək pillədədir ki, həmin yoxluğu hiss etmirik”.

**Aygün Tahir**



# Rusiyasız sülh mümkün olmayacaq

## Ermənistan süni gərginlik yaradaraq həm Qərblə, həm də Azərbaycanla siyasi alver etmək istəyir

**Xarici işlər naziri Ceyhun Bayramov aprelin 6-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərliyi arasında Brüsseldə keçiriləcək görüşə münasibət bildirib. XİN rəhbəri Azərbaycanın mövqeyini bir daha bəyan edib.**

Xatırladıb ki, 30 illik işğala son qoyulandan və üçtərəfli bəyanatın imzalanmasından qısa müddət sonra rəsmi Bakı dəfələrlə münasibətlərin normallaşması istiqamətində ciddi addımların atılmasına hazır olduğunu bəyan edib. Lakin Azərbaycan ötən bir il ərzində Ermənistan tərəfindən heç bir real qarşılıq görməyib: ”Bu il fevral ayının 21-də Azərbaycan tərəfi daha spesifik, konkret və sadə bir sənədi Ermənistan tərəfinə göndərib. Bu sənəd Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasını özündə ehtiva edən əsas beş baza təməl prinsiplərini əks etdirir. Biz çox konkret bir təklif vermişik”. Xatırladaq ki, İrəvan tərəfi 5 baza prinsiplərinin normal olduğunu etiraf etmişdi. Hətta Baş nazir Nikol Paşinyanla yanaşı, digər hökumət üzləri də Azərbaycanla yekun sülhün imzalanmasında, sərhədlərin tezliklə müəyyənləşməsində maraqlı olduqlarını bəyan etmişdilər. Lakin Brüssel görüşü gündəmə gələndən sonra Ermənistan rəsmiləri məqsədli şəkildə qərəzli, absurd açıqlamalar verməyə başladılar. İrəvan rəsmiləri Azərbaycanın Fərrux yüksəkliyini ”işğal” etdiyini, guya, erməniləri oradan qovduqlarını iddia etdilər. Bununla yanaşı, ”ATƏT-in Minsk qrupunun həmsədrləri də yenidən prosesə cəlb olunmalıdır” tələbləri də səslənməyə başladı. O səbəbdən əksər ekspertlərin fikrincə, ikinci Brüssel görüşündən ciddi nəticə gözləməyə dəyməz. Şübhəsiz, Ermənistan və Azərbaycan arasında davamlı sülhün bağlanması, ərazi iddialarının olmaması barədə rəsmi sənədin imzalanması çox vacibdir. Əgər belə bir sənəd olarsa, bölgədə iqtisadi münasibətlərin daha da səmərəli aparılması üçün kommunikasiyaların qarşılıqlı şəkildə açılması və genişlənməsi mümkündür. Amma sözdə sülh ”tərəfdarı” olan Ermənistanın əməldə danışıqlardan boyun qaçırması prosesin irəliyə doğru getməsinə imkan vermir. Ekspertlərin fikrincə, Ermənistanda siyasi hakimiyyətin zəif olması, İrəvana təsir edən xarici qüvvələrin çoxluğu, xüsusilə ölkədəki revanşist qüvvələr Nikol Paşinyanı sülhə bağlı addımlar atmaqdan çəkindirir. Ancaq Ermənistanın manevrləri mənasız və məntiqsizdir. Azərbaycan gec-tez Ermənistanı sülhə məcbur edəcək.

**Brüssel görüşü ərəfəsində Ermənistan rəhbərliyinin pozucu açıqlamalarını şərh edən politoloq İlqar Vəlizadə ”Şərq”ə deyib ki, İrəvanın məntiqini anlamaq çox çətindir. Ekspert vurğulayıb ki, Ermənistan rəsmilərinin demək olar ki, əksər açıqlamaları ziddiyyətli və məntiqsizdir:** ”Hadisələrin gedişi göstərir ki, Ermənistan tərəfi önəmli görüşlərdən, mühüm təmaslardan öncə neqativ, pozucu bəyanatlar verməyə adət edib. Məqsəd süni gərginlik yaradaraq həm Qərblə, həm də Azərbaycanla siyasi alver etməkdir. Əvvəllər bu ”ticarəti” həmsədr ölkələrlə edirdilər. Ermənistanın qayəsi odur ki, Qarabağ ermənilərinin ”təhlükəsizliyini” təmin etmək adı ilə siyasi şərtlər irəli sürsün. Siyasi şərtlərin ermənilərə görə ən önəmlisi ”status” məsələsinin müzakirəsinə nail olmaq, bunu danışıqların gündəliyinə salmaqdır. Fərrux və digər məsələləri qabardaraq iddia edirlər ki, ”baxın, status olmadan ermənilər Qarabağda yaşaya bilməzlər”. Analitik vurğulayıb ki, Avropa İttifaqının fəallaşması Rusiyanın proseslərdən kənarda qalması fikrini yaratsa da, əslində bu belə deyil: ”Biz Rusiya diplomatiyasının baş verən proseslər fonunda fəallaşmasını müşahidə edirik. Rusiya prezidenti ilə Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşü öncəsi telefon danışıqları bu prosesin tərkib hissəsidir. Danışıqlar zamanı kompleks məsələlər müzakirə edilib. Baxmayaraq ki, Brüssel görüşünün təşkilatçısı Rusiya deyil, ancaq bütün proseslərdə aparıcı rol oynayır. Bundan əvvəl təşkil edilmiş Brüssel görüşündə də Rusiyanın iştirakçılığı ilə imzalanmış üçtərəfli bəyanatlara istinad olunurdu. Hazırda Azərbaycan-Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası gündəmdədir. Moskva məsələ ilə bağlı tərəflərə öz vasitəçiliyini təklif edib. Yəni regionda məsələlərin reallaşması praktiki olaraq Rusiyasız mümkün deyil”.

**İsmayıl Qocayev**

# Silahlar susmayıb...

## Ukraynaya növbəti hücum şərq və cənubdan gözlənilir

**Ukrayna Prezidenti V.Zelenski Krım və Donbasın gələcək taleyinə aydınlıq gətirib. O deyib ki, kiminsə Krımı öz ərazisi adlandırmasına imkan verəcək danışıqlar aparmaq olmaz. Zelenski Ukraynanın Rusiya ilə müharibədə qələbə qazanacağını söyləyib: ”Əsas məsələ suverenliyimizi itirməməkdir.**

Bu, çox vacibdir. İkincisi, mən yüz minlərlə insanın həlak olmasını istəmirəm. Üçüncüsü, kiminsə Krımı öz ərazisi adlandırmasına imkan verəcək danışıqlar aparmaq olmaz. Bu, yalnız Ukraynanın ərazisidir. Ukraynanın təhlükəsizliyinə təminat haqqında müqaviləyə dair möhlətlə razıyam. Bu, kompromis qərar ola bilər. Donbas mənim, bizim, hamımız üçün Ukraynadır”. Onun sözlərinə görə, Rusiyanın müvəqqəti nəzarəti altında olan ərazilər barədə hələ danışılmır: ”Fevralın 24-dək bizim nəzarətimiz altında olan ərazilərin statusu barədə hətta müzakirə aparılmır. Biz bu barədə danışmırıq. Hərçənd biz bununla bağlı əvvəldən ultimativ şərtlər eşidirdik. Rusiya müvəqqəti işğal altında olan Donbas bölgəsindəki ”respublika”ları tanıyıb. Yaranmış vəziyyətdən çıxş yolu tapmalıyıq. Bu ərazilər Ukraynaya məxsusdur. Onların Ukraynaya məxsus olması ilə bağlı statuslarının saxlanılması vacibdir. Ukraynanı qalib sayıram. Əlbəttə, nə qədər itki verdiyimizi, itirdiyimizi, itirə biləcəyimizi başa düşürəm. Ancaq hesab edirəm ki, Rusiyanın genişmiqyaslı müharibəni başladığı nöqtəyə, yəni fevralın 24-dək olan mövqeyə çəkilməsi Ukraynanın qələbəsidir”. Zelenski deyib ki, Ukraynanın təhlükəsizlik zəmanətlərinə ehtiyacı var: ”Ən etibarlı sazişi imzalasaq belə Rusiya 2 ildən sonra qayıda bilər. Ordu dövlətimizi müdafiə etməyə qadir olmalıdır. Bizə təhlükəsizlik təminatı lazımdır.

### Kiyev sakinləri geri qayıdır, yollarda tıxac yaşanır

Bəzi Kiyev sakinləri evlərinə geri dönməyə başlayıb, nəticədə yollarda tıxaclar yaranıb. Şəhərə qayıdanlar daha çox yaşlı insanlardır. Paytaxt meri Vitali Kliçko kiyevliləri şəhərə qayıtmaqla bağlı tələsməməyə çağırır. Bununla belə, sakinlər pullarının bitməsini və s. amilləri əsas gətirərək öz doğma şəhərlərinə qayıdır. Kiyevə qayıdanların arasında uşaqlara rast gəlinmir.

### ”Rusiya Ukraynada hücumlarını artıracaq”

NATO-nun baş katibi Yens Stoltenberq deyib ki, Ukrayna qüvvələrinin güclü müqaviməti Rusiyanı öz müharibə planını dəyişməyə məcbur edib. O bildirib ki, hazırda Rusiya öz qüvvələrini yenidən qruplaşdırmaq, təchiz etmək və silahlandırmaq üzərində çalışır: ”Biz qarşıdakı günlərdə Rusiya qüvvələrinin Ukraynanın şərq və cənub istiqamətlərində hücumu artıracağını gözləyə bilərik. Rusiyanın məqsədi Donbas regionunu tam nəzarətə götürmək və Krımla quru yolu yaratmaqdır”.

### ”Rusiya ilə münasibətlərimiz kökündən dəyişib”

Baş katib Rusiya ilə münasibətlərin kökündən dəyişdiyini deyib: ”Rusiya 1990-cı illərdə NATO-Rusiya arasında imzalanmış və tərəflər arasında dialoqu dəstəkləyən sazişdən uzaqlaşdı. İllər ərzində dialoq və tərəfdaşlıqla bağlı apardığımız işlər artıq mövcud deyil. Lakin eyni zamanda, biz Rusiya ilə əlaqə saxlamağa davam etmək istəyirik, çünki Rusiya bizim qonşumuzdur. Çünki biz həmçinin çətin münasibətləri də idarə etməliyik, risklərin azaldılması, silahlara nəzarətlə bağlı məsələlər var. Lakin bizim əvvəllər çalışdığımız mənalı dialoq artıq Rusiya üçün bir seçim deyil. Çünki bu ölkə açıq və kobud şəkildə beynəlxalq hüququ pozub”.



### Ursula von der Leyen və Cozep Borrell Ukraynaya gedir

Avropa Komissiyasının prezidenti Ursula von der Leyen və Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell Kiyevə səfər edəcək. Bu barədə Avropa Komissiyasının prezidentinin mətbuat katibi Erik Mamer bildirib. Onun sözlərinə görə, həftə ərzində baş tutacaq səfər çərçivəsində Aİ rəsmiləri Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşəcək. Onlar aprelin 9-da isə Varşavada keçiriləcək Ukraynaya dəstək tədbirində iştirak edəcəklər.

### Ukrayna ordusu şimal əraziləri azad edib - Britaniya

Böyük Britaniya kəşfiyyatının gündəlik hesabatında deyilib ki, Şərqə yerləşdirilmək üçün Ukraynanın şimalından çıxarılan Rusiya qoşunlarının döyüşə başlamazdan əvvəl əhəmiyyətli dərəcədə yenidən təchizata ehtiyacı var. Qeyd olunub ki, Ukrayna qüvvələri ölkənin şimalında mühüm sektoru geri alıb, təchizat zəncirini kəsib və rus hərbçilərini Çerniqov, Kiyevin şimalındakı ərazilərdən geri çəkilməyə məcbur edib: ”Rusların ələ keçirdikləri ərazilərdə bəzi istiqamətlərdə ”ləng” döyüşlərin davam edəcəyi ehtimal edilir. Bu həftə rus qoşunlarının çıxarılması ilə əlaqədar döyüşlər bir qədər də zəifləyəcək”.

### ”Putinin əsas məqsədi Şərqi Avropadır”

NATO-nun keçmiş komandanı Uesli Klark bildirib ki, Rusiya Prezidenti Vladimir Putinin əsl məqsədi Qərb hərbi ittifaqını məhv etmək üçün Şərqi Avropaya tam nəzarəti ələ keçirməkdir: ”O, Ukraynanı, Baltikyanı ölkələri istəyir. Şərqi Avropaya tam nəzarət etmək, NATO-nu məhv etmək istəyir”. Klark ABŞ və onun müttəfiqlərini Ukraynaya hərbi yardımı artırmağa, o cümlədən döyüş təyyarələri verməyə çağırıb: ”Ukrayna sadəcə hazırkı döyüş meydanıdır. Amma ukraynalılar bu döyüş meydanında Rusiyanı məğlub etsələr, hər şey dəyişəcək. Ona görə də müdafiənin, NATO və beynəlxalq sistemi qorumağın ən yaxşı yolu Ukraynaya döyüş meydanında Rusiya ilə mübarizə aparmağa kömək edəcək yardımı verməkdir”.

### Rus diplomatlar xarici ölkələrdən qovulur

İtaliya Rusiyanın 30 diplomatını ölkədən çıxarıb. İtaliya XİN başçısı Luici Di Maio deyib ki, qərar digər Avropa və Atlantika tərəfdaşları ilə razılaşdırılıb: ”Milli təhlükəsizliyimizlə əlaqəli səbəblərə görə və Rusiya Federasiyası tərəfindən Ukraynaya qarşı əsassız təcavüzün yaratdığı mövcud böhran kontekstində bu addım zəruridir”. İspaniya da Rusiyanın 25 diplomatını ölkədən çıxarmaq barədə qərar qəbul edib. Eyni zamanda İsveç də Rusiyanın 3 diplomatını persona non-qrata elan edəcəyini açıqlayıb. Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko isə deyib ki, belə addımlar Avropa ölkələri ilə ikitərəfli münasibətlərə zərbə vura bilər.

### ”Vaşinqton Moskvaya qarşı sanksiya siyasətindən əl çəkməyəcək”

Rusiya prezidentinin sözçüsü Dmitri Peskov bəyan edib ki, Vaşinqton Moskvaya qarşı sanksiya siyasətindən əl çəkməyəcək: ”Biz bilirik ki, yeni sanksiyalar da mümkündür. Amerikalıların sevimli praktikalarından əl çəkmələri ehtimalı azdır”.

### ”Ukraynaya ciddi hərbi-logistik dəstək lazımdır”

Politoloq Məhəmməd Əsədullazadə deyib ki, Rusiya-Ukrayna müharibəsi hazırda Rusiyanın məğlubiyyəti ilə nəticələnir. Ekspertə görə, buna baxmayaraq, Rusiya hələ də işğalçılıq siyasətini həyata keçirir: ”Rusiyadan atılan raketlərin havadan müdafiə sistemləri tərəfindən vurulması labüddür. Buna görə Ukraynaya yeni silahlar verilməlidir. Hazırda Kiyev ətrafında rus qoşunları darmadağın edilib, Ukrayna qüvvələri əks-hücuma keçib. Rusiya öz ordusunu Donbas istiqamətində cəmləşdirib və ölkənin cənub-şərq hissəsində mövqelərini möhkəmləndirib. Bununla da Ukraynanın Azov dənizi sahilinə çıxışını bağlamağa çalışacaq. Bu baxımdan Ukraynaya ciddi hərbi-logistik dəstək lazımdır. Ukraynanın işğal olunmuş ərazilərini azad etmək üçün yeni və müasir silahlara ehtiyacı var. Bu yardım baş verərsə, Rusiya Ukraynanın diktə etdiyi şərtlər daxilində sülh müqaviləsi imzalaya bilər”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İctimai və dövlət maraqlarının müdafiəsi;**




# Milli Fəaliyyət Planı Azərbaycanı hədəflərinə daşıyacaq

## Atılan addımlar sayəsində korrupsiyaya qarşı mübarizədə daha effektli nəticələr əldə olunacaq

**Prezident İlham Əliyev korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı təsdiq olunması ilə bağlı sərəncam imzalayıb. Plana əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, həmçinin dövlət adından yaradılmış publik hüquqi şəxslər hər il dekabrın 30-dək Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına hesabat təqdim etməlidirlər.**

2022?2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir. Eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır. Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır. İqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur. Korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi ciddi problemlərdən olub. Bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalmaqdadır. O baxımdan korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir. Bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir. Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyən edilib. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşıb və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır. Ölkəmizdə son illərdə əsas strateji hədəflərə çatmaq üçün beynəlxalq miqyasda və ölkə daxilində görülmüş məqsədyönlü, düşünülmüş tədbirlər nəticəsində istər sosial-iqtisadi inkişaf, istərsə də hüquqi-institusional zəmin baxımından əhəmiyyətli irəliləyişə nail olunub. Eyni zamanda, Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılıb. Xarici və yerli investorların həmin ərazilərdə infrastruktur layihələrinin icrasına cəlb edilməsi, bu torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kimi dövlətin yeni strateji prioritetləri bölgənin gələcək inkişafının carçısıdır. Korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir. Ölkəmizin hazırkı inkişaf mərhələsi korrupsiyaya qarşı mübarizənin effektivliyini və davamlılığını təmin edəcək yeni bir sənədin qəbul edilməsini şərtləndirir. Milli Fəaliyyət Planında əks etdirilmiş kompleks tədbirlərin icrası ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi, şəffaflığın artırılmasına, ictimai nəzarətin təşkilində və korrupsiyanın ifşa edilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun artırılmasına xidmət edir. Dövlət sektorunda idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, yerli özünüidarəetmədə aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi əsas prioritet istiqamətlər və məqsədlərdir. Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin müvafiq icraçı qurumlar üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

**Milli Fəaliyyət Planının təsdiq olunması ilə bağlı "Şərq"ə danışan "Konstitusiya Araşdırmaları Fondu"nun rəhbəri, hüquqşünas Əlimməmməd Nuriyev ölkə rəhbərinin sərəncamını korrupsiya ilə mübarizədə yeni mərhələyə keçid adlandırıb. Ekspert bildirib ki, korrupsiyaya qarşı mübarizə illərdir davam edir və kifayət qədər uğurlu nəticələr əldə olunub. İndiki sərəncam aparılan mübarizənin daha da gücləndirilməsi və dərinləşdirilməsinə xidmət edir:** "Korrupsiya ilə mübarizədə daha ciddi və effektli nəticələr əldə olunmalıdır. Milli Fəaliyyət Planının hazırlanması Prezident tərəfindən 2021-ci ildə imzalanmış Dövlət Proqramlarının icrasına uyğunlaşdırılıb. Bu, tamamilə yeni qiymətləndirmə indiqatorlarının müəyyənləşməsi deməkdir. Fəaliyyət Planında aydın parametrlər müəyyən olunub. Plan 6 prioritet istiqaməti əhatə edir ki, bu da ümumilikdə 62 tədbirin həyata keçirilməsi deməkdir. Ən mühüm məsələlərdən biri qanunvericiliyin təkmilləşdirilməsi və risklərin müəyyənləşdirilməsidir. Önəmli məqamlardan biri də maraqlar toqquşması haqqında qanun layihəsinin qəbuludur. Bu, çox vacibdir, çünki maraqların toqquşması haqqında qanunun olmaması bir çox dövlət qurumlarının fəaliyyətində problemlər yaradır. Bu məqam məmur kapitalizminin inkişafına imkan verir, monopoliyanı genişləndirir. Həmçinin, satınalmalar sahəsində çoxsaylı problemləri üzə çıxarır. Bütövlükdə dövlət qurumlarının şəffaf fəaliyyətinə mane olur. Fəaliyyət Planına əsasən, eyni zamanda vəzifəli şəxslərin maliyyə hesabatları da elektron qaydada təqdim olunacaq. Görülən çoxsaylı tədbirlərlə korrupsiya hallarına yol açan səbəblərin aradan qaldırılması planlaşdırılır. Maliyyə şəffaflığı və çirkli pulların yuyulmasının qarşısını almaq üçün müvafiq addımların atılması nəzərdə tutulur. Xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi məqsədilə ölkə ərazisində, yaxud başqa dövlətin yurisdiksiyasında olan cinayət yolu ilə əldə olunmuş əmlakın və ya müsadirə edilməli olan digər aktivlərin qaytarılması ilə bağlı səmərəli fəaliyyətin həyata keçirilməsi planlaşdırılır. Ümid edirik, atılan addımlar sayəsində korrupsiyaya qarşı mübarizədə daha effektli nəticələr əldə olunacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Evsizlərin üzünə gün doğacaq?

## Uçotun aparılması yaxşı haldır, gərək işin nəticəsi də olsun

**Azərbaycanda yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahıları dərc ediləcək.**

Bu məsələ Prezident İlham Əliyevin təsdiqlədiyi "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapıb. Sənədə əsasən, sözügedən vəzifənin icrası İqtisadiyyat Nazirliyinə, yerli icra hakimiyyəti orqanlarına, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə (ASAN xidmət) həvalə olunub. Tədbirlər Planına əsasən yaşayış sahəsinə ehtiyacı olan vətəndaşların uçota alınması ilə bağlı dövlət xidmətləri elektronlaşdırılmalı, mənzilə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahıları rəsmi internet saytında dərc edilməlidir.

**Son illər ölkədə həyata keçirilən sosial mənzil siyasətinin effektivliyinə toxunan əmlak məsələləri üzrə ekspert Ramil Osmanlının "Şərq"ə açıqlamasında deyib ki, sözügedən qərar da sadəcə mənzilə ehtiyacı olan şəxsləri siyahıya almaq və ya bu şəxslərin sayını müəyyənləşdirmək üçün verilməyib:** "Azərbaycan hökumətinin əhalinin mənzil təminatının yaxşılaşdırılması istiqamətində atdığı addımlar, qəbul etdiyi qərarlar, həyata keçirdiyi proqramlar bazar iqtisadiyyatında formalaşmış bir ölkə üçün kifayət qədər mütərəqqi addımlardır. Hökumət üçün prioritet hesab olunan bu məsələnin həlli istiqamətində real addımlar da atılıb. Məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların hər birinin yaşayış sahəsi ilə təmin edilməsi də bunun göstəricisidir. Bununla belə apardığımız araşdırmalara istinadən deyə bilərəm ki, adambaşına düşən mənzil və birgə təsərrüfatların təminatı heç də ürəkaçan deyil. Üç təsərrüfatdan biri mənzilsizlik problemi yaşayır.

> **"Ümid edək ki, evə ehtiyacı olan şəxslərin siyahıları icra hakimiyyəti orqanlarının rəflərində saxlanmayacaq"**

Ona görə, yaşayış sahəsinə ehtiyacı olan şəxslərin uçotunun aparılması və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması məsələsinin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapmasını müsbət hal kimi dəyərləndirirəm. Ümid edirəm ki, evə, yaşayış sahəsinə ehtiyacı olan şəxslərin, təklif edilən mənzil fondunun siyahıları hazırlandıqdan sonra müvafiq icra hakimiyyəti orqanlarının rəflərində saxlanmayacaq və real addımların şahidi olacağıq".

*R.Osmanlı qeyd edib ki, bir çox hallarda həyata keçirilən tədbirlər gözləntiləri doğrultmur, kimlərsə hökumətin atdığı addımlardan şəxsi maraqları üçün istifadə edir.*

Güzəştli mənzillərin onlayn satışının yekunu ilə bağlı gedən müzakirələr göz önündədir. Bu satışlar ölkə miqyasında narazılıq doğurdu. Bütün bunlar fonunda yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının dərc edilməsində şəffaflığa necə nail olunacaq?

**R.Osmanlı bu məsələyə də aydınlıq gətirib:**

- Bu, daha çox insan amilinə bağlı olsa da, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"da bu istiqamətdə bir sıra məqamlar qeyd olunub. Əsas məsələ bu işin hansı formada görülməsindən ibarət olacaq.

**Şəymən**

# "Milli Məclis iş görmək istəyirsə..."

## Məhərrəm Zülfüqarlı: "...Bələdiyyələrin səlahiyyətlərini artırsın"





**Gəncə və Sumqayıtda vahid bələdiyyələr yaradılacağı haqqında müzakirələr aparılıb. Bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov parlamentin dünən keçirilən iclasında deyib.**

Onun sözlərinə görə, sonradan bu, effekt verərsə, Bakı Böyük şəhər Bələdiyyəsinin yaradılmasına baxıla bilər. Qeyd edək ki, qanunla müəyyənləşən ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi və seçkili orqanları mövcuddur.

Azərbaycan Respublikası Konstitusiyası ilə və bu qanunla ixtiyarlarına verilən yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll etməlidir. Lakin bu gün həmin qurumlar öz səlahiyyətlərinə tam şəkildə yiyələnə bilmirlər. Belə bir vəziyyətdə Bakı Böyük şəhər Bələdiyyəsinin yaradılmasının nə dərəcədə real olması, necə fəaliyyət göstərəcəyi sual doğurur.

**Bələdiyyələrlə bağlı "Şərq"ə münasibət bildirən ekspert Məhərrəm Zülfüqarlı onların səlahiyyətlərinin yüksək şəkildə həyata keçmədiyini vurğulayıb:** "Özüm uzun müddətdir, Sumqayıt sakiniyəm. Bilirəm ki, orada şəhər özünüidarəetmə qurumu var. Hacı Zeynalabdin qəsəbə bələdiyyəsi və Corat bələdiyyəsi də fəaliyyət göstərir. Əvvəl iki rayon özünüidarəetmə forması idi, indi ləğv edilib, Gəncədə də şəhər bələdiyyəsi olub. Bakıda isə, rayon bələdiyyələri var, amma bu yerli idarəetmə orqanının şəhər versiyası yoxdur. Məncə, birinci Bakı bələdiyyələrinin formalaşması məsələsindən əvvəl səlahiyyətləri ilə bağlı müzakirə aparılmalıdır. Hazırda bələdiyyələrin hüquqları aşağı səviyyədədir. Əksəriyyəti də icra hakimiyyətinin əlavəsinə çevrilib".

Ekspert bələdiyyə sisteminin detallarını izah edib: "Bələdiyyənin beynəlxalq aləmdə 2 növü var: anqlo-sakson və fransız. Anqlo-sakson idarəetmədə yerlərdə prezidentin nümayəndəsi olaraq bütün səlahiyyətlər bələdiyyələrə verilir. Fransız formasında isə, həm prezidentin nümayəndəsi , həm də bələdiyyələr olur, səlahiyyətlər bölünür. Qardaş Türkiyədə də belədir. Bizdə fransız sistemi istifadə edilsə də, bu qurumların yarandığı andan, yəni 1999-cu ildən bəri icra hakimiyyətinin əlavəsi kimi çıxış edir. Ona görə, xalq arasında nüfuza sahib deyil".

M.Zülfüqarlı bələdiyyələrin düzgün fəaliyyət göstərməsi üçün çıxış yolu göstərib: "Milli Məclis iş görmək istəyirsə, bələdiyyələrin səlahiyyətini artırsın. Elə edilməlidir ki, icra hakimiyyətləri bələdiyyələrə müdaxilə etməsin. Yəni yerlərdə ikihakimiyyətlilik olsun. Bir-birinə tabe olmayan 2 qurum vasitəsi ilə problemlərin həlli doğru şəkildə həyata keçirilə bilər".

**Müsahibimiz Bakı Böyük şəhər Bələdiyyəsi ilə bağlı fikrə də münasibət bildirib:** "Bakı Böyük şəhər Bələdiyyəsi ilə bağlı əvvəllər də danışıqlar baş tutub. Deyirdilər, mer seçkiləri olsun. Çünki paytaxtın Şəhər İcra Hakimiyyətinin başçısı mer deyil. Bu, prezident tərəfindən təyin olunandır. Mer isə, Türkiyədəki kimi seçki yolu ilə seçilməlidir. Buna görə də, bələdiyyələrin səlahiyyətləri artırılmalıdır. Bunlar konkretliyi özündə təzahür etməlidir. Xalq görəndə ki, bələdiyyələr artıq fəaliyyət göstərir, o zaman Bakı Böyük şəhər Bələdiyyəsinə seçkilər keçirmək olar".

**Cəmilə Əzim**

# Yuanı böyük bazara hakimlik edə bilməz

## Çin iqtisadiyyatı özü Qərb siyasətinin birbaşa modelidir

**Qərb şirkətləri Rusiyanı tərk edir. Bu da Çinlə ticarətin genişlənəcəyi anlamına gəlir. Artıq bir neçə yerli bank müştərilərə Çin valyutasında hesab açmağı təklif edib. Hazırda Çin Xarici İşlər Nazirliyi Rusiya ilə ticarətin rubla və yaxud yuana keçməsi mövzusunu yenidən gündəmə gətirib. Söhbət hələ ki, yalnız enerji mənbələrindən gedir.**

ÇXR Cənub-Şərqi Asiyada və ərəb ölkələri ilə eyni strategiyanı irəli sürür. Məsələn, Vaşinqtonun siyasətindən narazı olan Səudiyyə Ərəbistanı dolları "qara dəlik" adlandırır. Bilirik ki, Çin iqtisadiyyatı dünyanın ən böyük iqtisadiyyatlarından biridir. Ukrayna-Rusiya müharibəsinin fonunda yuanın həyat qazanması, üstünlük əldə etməsi, əsas valyuta vahidləri olan avro, dollarla rəqabət aparanaq, dünyanın əsas valyutasına çevrilməsi mümkündürmü?



**Sualımızı cavablandıran iqtisadçı Fuad İbrahimov "Şərq"-ə bildirib ki, hazırda yuanın məzənnəsi dollara bağlıdır:** "Bu gün Rusiya Çinlə ticarət, mübadilə etmək siyasətindədirsə, iki valyutanın bir-birinə olan nisbətini necə müəyyən etmək lazımdır? Şübhəsiz ki, bunların arasında bir ölçü vahidi seçilməlidir. Uzunluq ölçü vahidləri santimetr, metr, kilometr və s. olduğu kimi bu sahədə də valyuta əlbəttə ki, dollardır. Bildiyimiz kimi, avro da kifayət qədər dövriyyədədir. Bu nöqteyi-nəzərdən indiki məqamda yuanın Rusiya bazarında hər hansı ölçü vahidini əvəz etməsi mümkündür. Ölkələr öz aralarında qərarlaşdırıb, məzənnəni müəyyən edirlər. Məlum olduğu kimi, bu gün istər köçürmə sistemləri, istər transaksiya əməliyyatlarında ABŞ məhz institusional mərkəzdir. Bu, illərlə formalaşır, bir-iki il ərzində deyil. SSRİ dağılandan, Varşava danışıqlarının pozulmasından və bu ölkələr də sosializmdən kənarlaşdıqdan sonra Rusiya birbaşa Qərbə inteqrasiya edib. Neçə illərdir ki, bu sistemlə də yaşayır. Bu baxımdan əlbəttə ki, bu haqda danışmaq hələ tezdir. Ən azından on illərlə vaxt lazımdır ki, bu sistem təkmilləşdirilsin. Eyni zamanda onu əvəz edə biləcək qüvvə olsun. Əlbəttə, hər hansı bir barter əməliyyatları, ümumi ticarət dövriyyəsi mümkündür. Amma qlobal, fundamental, makroiqtisadi səviyyədə bu sistemə keçmək üçün hələlik qərblə inteqrasiya sistemindən istifadə etmək lazım olacaq. Çin iqtisadiyyatı özü Qərb siyasətinin birbaşa modelidir. 80-ci illərin əvvəlindən başlayaraq ABŞ-ın modeli üzərində qurulmuş bir iqtisadiyyatdır. Hazırda hər hansı əvəzedici qüvvə Çin üçün də imkan xaricindədir. Rusiya da ən azından mərhələli şəkildə bu vəziyyətdən çıxış yolu axtaracaq".

**Sücayət Mehti**

# Biz bir gün də atsız yaşaya bilmərik

## Azərbaycan xalqının tarixində atsız mərhələ olmayıb

(Əvəli səh: 8-də)

**"Qafqaz" qəzetinin 1853-cü il, 44-cü sayında bu enerjili atları sonuncu Qarabağ xanı Mehdiqulu xanının zavodundan belə təsvir edirdilər: "Bu zavodun qoca və ən yaxşı cinsi Sarular, yəni qızılkəhərli; boyları hündür olmur: başları gözəl olur, ərəb atlarına bənzəyirlər.**

Qabarıq alovlu gözləri, açıq burun dəlikləri, qulaqları kiçik, amma rəvan, boynu gözəldir; ancaq boğazı xirtdəklə olur və buna görə də belində atlı olarkən toparlanan zaman boğazı maral boğazına bənzəyir; beli düz, yanları ətli, uzunsov deyil, daha dairəvi şəkildədir. Quyruğu gözəl, döşü enli, baldır və budları əzələli, yanları yaxşı inkişaf edib, əzələ və damarları möhkəm olur və görünür. Oynaqları isə bəzən bir qədər uzun olur; bu atlar heç vaxt topuq vurmurlar". Məlumatlardan biri də budur ki, Qarabağda atçılıqda nəsil inkişafı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın dövründə baş verib. Natəvanın Qarabağ atları Parisdə, eləcə də, Moskvada, Tiflisdə və digər dünya sərgilərində iştirak edərdilər. Və elə o vaxt, XIX əsrin ikinci yarısında qızıl medal və fərmanlar almaqla, birinci yerləri tutardılar. 1870-ci ildə rus rəssamı Vasili Vereşyagin yazırdı: Həyatımda gördüyüm ən yaxşı atlar Şuşada, Cəfərqulu Xana məxsusdur".

Qarabağımızın azadlığı ilə bu dilbər guşəyə məxsus bir çox təsərrüfat sahələri dirçəlməyə başlayıb, o cümlədən də atçılıq təsərrüfatı. Məsələn, Azərbaycanda ilk dəfə olaraq "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan Qobustan Heyvandarlıq Nümayiş Kompleksində Qarabağ cins atlarının auksion vasitəsi ilə satışı həyata keçiriləcək. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin məlumatında bildirilir. Aprelin 15-də keçiriləcək auksionda həm yerli, həm də xarici təsərrüfat sahibləri, sahibkarlar iştirak edə bilər. Hərraca yüksək potensiala malik xüsusi seçilmiş atlar çıxarılacaq və satış auksion formatına uyğun olaraq həyata keçiriləcək. Bununla yanaşı kompleksdə Qarabağ atları haqqında canlı və interaktiv məlumatlar veriləcək. Atların satışı son qiymətə uyğun rəsmiləşdiriləcək və sığorta şirkəti tərəfindən sığortalanacaq. Məlumatda bildirilir ki, Qarabağ atları yüksək qaçış sürəti ilə seçilir. Bu atların əsas yeriş forması çaparaq yerişdir, yerişi geniş və cəld, bütün hərəkətləri çevikdir. Qarabağ atı hündür, çevik, hərəkəti səlis, bədən quruluşu möhkəmdir. Minik atıdır. Alın və burun sümükləri yaxşı inkişaf edib, gözləri qabarıqdır. Boynu orta uzunluqda, hətta bir qədər də gödək və hündür duruşludur. Qarabağ atı daha dözümlüdür və yemə qarşı tələbkar deyil. Qeyd edək ki, Qobustan Heyvandarlıq Nümayiş



***"Qarabağ atları brenddir. Biz bu atları dünya arenasına çıxarmalıyıq"***

Kompleksinin fəaliyyətinin məqsədi cins damazlıq heyvanlara yanaşı, yerli cins heyvanların da satışının təşkil edilməsi ilə fermerlərin cins heyvanlara əlçatanlığına nail olunması, yerli damazlıq təsərrüfatların yetişdirdiyi heyvanların satışını stimullaşdırmaqla onların inkişafına təkan vermək, ölkədə heyvanların cins tərkibinin yaxşılaşdırılmasına nail olmaq, damazlıq təsərrüfatlar arasında koordinasiya yaratmaqdır. Kompleksin daxilində heyvan satışını həyata keçirən lizinq şirkətləri, heyvanların sığortalanması üçün sığorta şirkətləri fəaliyyət göstərir. Bu müasir kompleks heyvan alqı-satqısı zamanı bütün prosesləri fermerlər üçün daha əlçatan edir. Belə ki, bütün alqı-satqı, sığorta, lizinq, güzəşt tətbiqi prosesləri vahid mərkəzdə həyata keçirilməklə, xidmətlərin operativliyi və şəffaflığı təmin edilir. Hərracda iştirak etmək istəyənlər elan verildiyi gündən 1659 satış mərkəzinə müraciət edib qeydiyyatdan keçə bilər.

**Atçılığın inkişafının ölkəmizə böyük perspektivlər vəd etdiyini söyləyən araşdırmaçı-jurnalist, əslən Qarabağ bölgəsindən olan Kərim Kərimli "Şərq"ə açıqlamasında Qarabağ atlarının xüsusi dəyərə malik olduğunu dedi:**

- Yəqin, bilirsiniz ki, hələ sovet vaxtı Ağdamda At zavodu vardı, "Konzavod" deyirdilər. Maqsudlu kəndindən bir az irəlidə, Göytəpə ərazisində olub. Ermənilərin həmişə bu zavodda gözü vardı. Qarabağ müharibəsində zavodu və oradakı atları ələ keçirməyə çalışırdılar. O zamankı təhlükə artır, zavodun işçiləri atları ərazidən çıxarmağı qərara alırlar ki, düşmən əlinə keçməsin. Mən o zavodun işçiləri ilə sonra Kürdəmirdə görüşmüşdüm. Ermənilərin mərmi atəşi altında atları necə çıxardıqlarını danışmışdılar. Deməli, zavodda ata-oğul işləyirmiş. Atları qabaqlarına qatıb əvvəlcə Bərdəyə - Ağdama daha yaxın yerə gətiriblər. Zavodun işçiləri atları adbaad tanıyır. Oğul görür ki, filan at yoxdur, atasından soruşur, ata deyir ki, at yeni doğmuşdu, balasını qoyub gəlmədi. Oğul narazı qalır ki, mənə niyə demədin, gətirərdim onu da. Ata da "a bala, ora qayıtmaq təhlükəlidi, vurarlar səni", deyir. Amma oğul (təəssüf ki, ata-oğulun adlarını xatırlaya bilmirəm) - K.Kərimli) dözmür, atını minir, geri qayıdır. Nə qədər çalışır, at balasını qoyub yerindən tərpənmir. Oğulun ağlına gəlir ki, balanı aparsa, madyan arxasınca gələcək. Qulunu alır qucağına, minir atına, çapmağa başlayır. Görür ki, madyan da ardınca gəlir. Yəni belə bir əhvalat olub o zaman. Zavodun işçiləri bir atı belə ermənilərin əlinə buraxmayıblar. Sonrakı illərdə cənab Prezident İlham Əliyev tərəfindən atçılıq təsərrüfatlarının inkişafı məqsədilə bir neçə sərəncam imzalandı, xüsusən Qarabağ atı cinsinin yetişdirilməsi üçün Prezidentin Ehtiyat Fondundan vəsait ayrıldı. Dövlət tərəfindən atçılığın inkişafına həmişə diqqət olub. Qobustan Heyvandarlıq Nümayiş Kompleksində Qarabağ cinc atlarının auksionu keçiriləcəksə, əlbəttə, bu, dövlət səviyyəsində atçılığın inkişafına göstərilən diqqətin, bu sahənin inkişafının təmin edilməsinin nəticəsidir. Atın Azərbaycan xalqının, ümumilikdə türk xalqlarının tarixində, mədəniyyətində, məişətində necə önəmli yer tutduğunu söyləməyə məncə, ehtiyac yoxdur. Bunu böyükdənkiçiyə hamı bilir. Türk mifologiyasında atın xüsusi yeri var. Yəhər yalnız türk xalqlarına məxsusdur. Ermənilər atı yəhərləmir. Onlar atın belinə palan qoyurlar. Türk isə atın belinə palan qoyulmasını alçaqlıq sayır. Azərbaycan xalqının tarixində atsız bir mərhələ olmayıb. Hətta elmin, texnologiyanın bu dərəcədə inkişaf etdiyi bir dövrdə də biz atsız yaşaya bilmirik. At həmişə lazımlı, gərəklidir. Hazırda neft-qaz kəmərlərinin keçdiyi elə ərazilər var ki, ora avtomobil yolu yoxdur. Atlı mühafizəçilər qrupu var ki, həmin ərazilərə at belində nəzarət edirlər. Atçılığın inkişafı bir çox sahələrdə əhəmiyyətlidir. Müxtəlif at idman yarışları, cıdır yarışları keçirilir. Bununla bağlı atlara tələbat böyükdür. Atlı turizm hazırda böyük marağa səbəb olur. Həm ekzotikdir, həm də gəlirli sahədir, cəlbedicidir. Azərbaycanın elə bölgələri var ki, orda atlı turizmi inkişaf etdirmək olar. Ölkəyə gələn qonaqlar bölgələri at belində gəzsinlər. Hansı turist bundan imtina edər? Ən əsası da budur ki, Qarabağ atları Azərbaycan brendidir. Biz bu atları dünya arenasına çıxarmalıyıq. Sovet vaxtı bunu edə bilirdiksə, müstəqil, güclü və qalib Azərbaycan iki-üç qatını edər. Qarabağ atlarının ixrac potensialını formalaşdırmaq mümkündür. Perspektivlər çoxdur. Təsərrüfatda da məlum məsələdir ki, atlara həmişə böyük tələbat var. Hansı tərəfindən baxsan atçılığın inkişafı sərfəlidir, səmərəlidir.

**Məlahət Rzayeva**

## "Dilim də var, dilçəyim də"

### Səidə Sultan Elzanı ağ yuyub, qara sərdi



**Müğənni Səidə Sultan Əməkdar artist, bəstəkar Elza Seyidcahanın ünvanına sərt sözlər söyləyib.**

"Şərq" xəbər verir ki, müğənni "ŞouRum" verilişində E.Seyidcahanın ifasını dinlədikdən sonra dediyi ifadələr qalmaqal yaradıb.

"İQ səviyyəsi 70 faizdir. Bundan normal insanlardakı kimi 90 faiz İQ gözləyirsiz? 70 faiz isə əqli zəiflik, çatışmazlıqdır.

Mənim haqda süjeti izləyib "yazıq" kimi xitab edib. Söz atırsan. Niyə yazığam? Yazıq düşmən olar, belə də ki, yazıq sənsən. Çox şükür, hər şeyim yerindədir.

Mahnılarım sevilir. Artıq söz eşitmirəm, hörmət görürəm, qarşılıq göstərməyə çalışıram"-, deyə bildirib.

Səidə Sultan onun haqqında "Mahnı oxumaqla deyil, soyunmaqla gündəmdədir" söyləyən əməkdar artistə səslənib: "Elza xanım, mahnılarım çılpaqlığa görə sevilməyib. Səidə Sultan kimi efirə çıxandan bəri qısa paltar, şort geyinmişəm. Ona görə efirlərə çağırmırdılar. Acığa elə qısa da geyinirdim. Açıqsaçıq geyinmək bədənimə yaraşır. Dilim də var, dilçəyim də. Hamısı bir-birini tamamlayır".

**Aygün Tahir**

**Elan**

Abbaslı Vüqar Kazım oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Meşə yanğınları erkən başladı

## Yanğınların böyük əksəriyyəti insan faktoru ilə bağlıdır

**Son günlər, havalar hələ tam istiləşməmiş meşə yanğınlarının qeydə alınmasına şahid oluruq. İki gün əvvəl Qəbələdə, daha sonra Oğuzda baş verən yanğın hadisələri də bunun göstəricisidir. Bu nə deməkdir? Evlərdə istilik sistemləri işləyir.**

Lakin artıq meşə yanğınları baş verir. Demək ki, təhlükənin növbəti aylarda xeyli artacağı ehtimalı böyükdür. İstilərin düşməsi ilə yanaşı təbii ki, insanların məsuliyyətsizliyi, biganəliyi də bu problemlərin yaranmasında rol oynayır. Əsasən yay aylarında insanlar meşələrə istirahətə gedirlər, pikniklər, oyunlar, gəzintilər təşkil olunur. Orada tonqal qalayırlar, günün sonunda isə odu söndürmədən ərazini tərk edirlər. Nəticədə təbiətə zərər dəyir.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib ki, nazir müavini yanğın hadisələrinin baş verməməsi üçün kənd təsərrüfatı ilə məşğul olan sahibkarları, fermerləri, meşə ətrafında yaşayan kənd sakinlərini, heyvandarlıq və əkinçiliklə məşğul olan vətəndaşları odla ehtiyatlı davranmağa, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə, biçindən sonra sahələrə od vurmamağa, söndürülməmiş siqaret kötüklərini ətrafa atmamağa, yanğına şərait yaradan bütün hallara qarşı birgə mübarizəyə çağırıb.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar**

***"Yaxşı olardı ki, meşə ərazilərinə giriş hissələrində xəbərdarlıq lövhələri daha çox təşkil edilsin. İnsanları maksimum məlumatlandırmaq lazımdır"***

**Nurəliyev "Şərq"ə açıqlamasında bildirib ki, meşə yanğınlarının böyük əksəriyyəti demək olar ki, insan faktoru ilə bağlıdır:** "Təhlükəsizlik qaydalarına riayət etmədən, məsuliyyətsiz davranış sərgiləyirlər. Orman ətrafında istirahət zamanı, pikniklərdə açıq oddan istifadə, tonqalın söndüyünə tam əmin olmadan ərazini tərk etmək təbii ki, meşə yanğınları ilə nəticələnəcək. Vaxtında qarşısı alınmadıqda isə təhlükənin miqyasının genişlənməsinə gətirib çıxarır. Beləliklə, həm ekologiyaya, həm insanlara, həm də onların əmlakına ziyan dəyir. Meşə yanğınlarının qarşısını almaq üçün aidiyyəti üzrə qurumlar ormanlıq sahələrdə yaşayan sakinlərə də, orada yerləşən istirahət mərkəzlərinə, otellərə, onların işçilərinə də təlimatlar verilməlidir. Yaxşı olardı ki, meşə ərazilərinə giriş hissələrində xəbərdarlıq lövhələri daha çox təşkil edilsin. İnsanları maksimum məlumatlandırmaq lazımdır".



**Sücayət Mehti**

# Narkotika böyük bir biznesdir

## Bu cinayətkarlar əməllərindən asanlıqla əl çəkən deyillər



**Azərbaycan-İran sərhədinin Cəbrayıl rayonu ərazisində sərhədçilər və dövlət sərhədinin pozucuları arasında atışma baş verib.**

Nəticədə təqib edilən 6 sərhəd pozucusundan biri zərərləşdirilib, 5-i isə sıx qamışlıq və havanın qaranlıq olmasından istifadə edərək ərazidən uzaqlaşa biliblər.

Zərərsizləşdirilmiş sərhəd pozucusunun İran vətəndaşı Behnam Balai olması müəyyən edilib. Onun yanında "Kalaşnikov" avtomatı və 3 bağlamada 32 kiloqramdan artıq narkotik aşkarlanıb.

Sonradan PUA vasitəsilə daha bir cinayətkar aşkarlanıb və saxlanılıb.

İkinci sərhəd pozucusu da İran vətəndaşı olub.

İran-Azərbaycan sərhədində belə hadisələr illərdir mütəmadi şəkildə baş verir. Hətta narkotik vasitələri ölkəyə keçirmək istəyən şəxslərlə silahlı atışmaya girən əsgərlərimiz bəzən yaralanıb və ya həyatını itirib.

Bu probleme birdəfəlik həll yolu tapmaq mümkündürmü?

**Bu barədə "Şərq"ə danışan hərbi ekspert Üzeyir Cəfərovun sözlərinə görə, bu cinayətkarlar heç vaxt öz əməllərindən əl çəkməyiblər:**

"Torpaqlarımız işğal altında olanda ermənilərlə əl-ələ verib öz işlərini həll edirdilər. Amma torpaqlar işğaldan azad olunandan sonra da buradan narkotik vasitələri daşımağa çalışırlar. Müxtəlif ərazilərdən, sərhəd-keçid məntəqələrindən uzaq olan yerlərdən istifadə edirlər.

Ancaq sərhədçilərimiz də bilir ki, bu işlə məşğul olanlar hansı ərazilərdə daha çox fəallıq göstərə bilərlər. Dəfələrlə Dövlət Sərhəd Xidməti (DSX) İrana bu barədə narazılığını bildirib. Onlar da bu məsələlərə diqqət yetirməlidir. Bizim Sərhəd Xidməti ilə İran tərəfi arasında qarşılıqlı yardım haqqında birgə imzalanmış sənəd var. Yəni biz İran sərhədi ilə bağlı olan məsələni İran tərəfinin diqqətinə çatdırırıq. İran da eyni öhdəliyi öz üzərinə götürüb. Amma bəzi hallarda onlar buna əməl etmirlər və səhlənkar yanaşırlar. Baş verən hadisələr həmin koordinasiyanı İranın pozması səbəbindən baş verir. Son vaxtlar DSX dəfələrlə belə halların qarşısını alıb və İrana müəyyən diplomatik yollarla öz fikrini çatdırıb. Amma bu hadisələrin ardı kəsilmir. Çünki bu, çox böyük bir biznesdir. Bir sıra cinayətkar ünsürlər üçün bu biznes çox böyük vəsait gətirir və həmin pullar iri bazarlarda dövriyyə edir".

**Ekspert bildirib ki, 2-3 nəfərin həbs edilməsi ilə bu iş bitmir:**

"Bu, böyük cinayətkar şəbəkədir və təsir dairəsinə daha çox insanı cəlb etməyə çalışır. Belə halların birdəfəlik qarşısının alınmasını gözləmək düzgün deyil. Sadəcə əlimizdən gələn qədər çalışmalıyıq ki, bu faktların sayı azaldılsın. Bu, çox çətin məsələdir. Buna görə də sərhəd boyu təhlükəli ərazilərdə daha təcrübəli və hazırlıqlı əsgərlərimizi çıxarırlar. Sərhəd Xidmətinin əsgərləri əllərindən gələni edirlər. Ancaq istənilən halda, bu hadisələr olub və davamlı şəkildə olacaq".

**Sənan İsmayıl**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 858



## Qızıldan hazırlanmış ilk otel

### Binanın divarları əsl qızılla üzlənmiş keramik plitələrlə hörülüb



**Vyetnamın Hanoy şəhərində 24 karatlıq qızılla içəridən və xaricdən bəzədilmiş dünyanın ilk otel tikilib.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, sahəsi 5 min kvadratmetr olan binanın divarları Yaponiyadan gətirilən əsl qızılla üzlənmiş keramik plitələrlə hörülüb. İyirmi beş mərtəbəli binada ümumilikdə 342 otaq var. Hətta buradakı qablar da qızıldan hazırlanıb. Bundan əlavə, otelin damında qızılı üzgüçülük hovuzu da fəaliyyət göstərir. Oteldə qiymətlər 300 dollardan başlayır.

## Şəkər xəstələrinə dərmandır

### Gündə 2 dəfə zəfəran xəstəliyin çarəsidir



**Britaniya mətbuatı "Daily Express" alimlərin şəkər xəstələri üçün möcüzə məsləhətini açıqlayıb.**

Bakupost.az xəbər verir ki, gündə 2 dəfə zəfəran qəbulu qanda şəkərin səviyyəsini xeyli salır.

Bunun üçün zəfəranın su-spirtdə ekstraktını qəbul etmək lazımdır.

Xüsusi ekstrakt olmadıqda 1 qram zəfəranı çay kimi dəmləyib gündə 2 dəfə içmək şəkər xəstələrində acqarına şəkərin səviyyəsini salır.

## Pitbul 2 yaşlı uşağı parçaladı

### İt sahibi cəzalana bilər



**Pitbul cinsi it 2 yaşlı uşağı 40 fərqli nahiyəsindən dişləyib.**

**"Şərq" xəbər verir ki, bədbəxt hadisəTayvanın cənubunda yerləşən Pinqtunq şəhərində baş verib.**

**Pinqtunq Rayon Kənd Təsərrüfatı Nazirliyinin (DOA) direktoru Çenq Yunq-yu bildirib ki, pitbul cinsi it aprelin 3-də Pinqtunq şəhərinin Kandinq rayonunda evdən qaçaraq uşağı dişləyib.**

**İtin sahibinin kiçik uşağı hücumdan xilas etməyə çalışdığı zaman özünün də it tərəfindən dişləndiyi öyrənilib. Müdaxilədən sonra xilas edilən uşağın 40 dəfə dişləndiyi bəlli olub və dərhal xəstəxanaya çatdırılıb. Vəziyyətinin yaxşı olduğu öyrənilən uşaq daha sonra Kaohsiunq şəhərindəki başqa xəstəxanaya aparılıb.**

**Digər tərəfdən, itin sahibi, it hələ balaca olarkən onu sahibləndiyini deyib. Həmçinin o, itinin pitbul yox, bu cinsə oxşar xüsusiyyətlərə malik olan qarışıq cins olduğunu söyləyib. Nazirlik itin sahibinin cəzalandırıla biləcəyini də açıqlayıb.**

Çimnaz Şahlar

## Mask tvitterin 73,5 milyon səhminə sahibdir



**Dünyanın ən zəndin adamı, "SpaceX" və "Tesla" şirkətlərinin qurucusu İlon Mask tvitterin 9,2% payının sahibi olub.**

**Axşam.az xəbər verir ki, bu barədə ABŞ Qiymətli Kağızlar Komissiyasının saytında məlumat yerləşdirilib.**

**Bundan sonra isə sosial şəbəkənin səhmləri 26% bahalaşıb. Mask hazırda tvitterin 73,5 milyon səhminə sahibdir. Paketin qiyməti isə 2,89 milyard dollardır.**

***Qeyd edək ki, dünyanın ən zəngin adamının 219 milyard dollar sərvəti var.***

## Oğlu Sedanın toyuna getməyəcək

### O, anasına sakit şəkildə ailə qurmasını tələb edib





**Yeddinci dəfə ailə həyatı qurmağa hazırlaşan müğənni Seda Sayanla oğlu Oğulcan Engin arasında gərginlik yaşanıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, oğlu sənətçinin Çağlar Öktəmlə sakit şəkildə ailə qurmasını tələb edib.**

**O, nikahda da iştirak etməyəcəyini bildirib.**

***Qeyd edək ki, Seda Sayan özündən 25 yaş kiçik musiqiçi ilə mayda Praqada ailə quracaq.***



# Biz bir gün də atsız yaşaya bilmərik

### Azərbaycan xalqının tarixində atsız mərhələ olmayıb



**"Dərviş Parisi partladır" filmində belə bir epizod var: Qonşu diyarlardan gəlmiş qonaqlar - at alıcıları Cıdır düzündə Qarabağ atlarını seyr edir. Hatəmxan ağa buyurur: "Əyə, Şahbaza deyin, "İldırım"ı gətirsin".**

Şahbaz bəy "İldırım"ın belində gəlir. "İldırım" nə "İldırım" Bu vaxt Hatəmxan ağanın qaynı Rəşid bəy Mixail Yuryeviç Lermontovun Qarabağ atı haqqında məşhur misralarını səsləndirir:

**Yəhərə salınmış ipəkdən naxış,**
**Qantarğası ondan geri qalmamış.**
**Səmənd baş aparır, cilov gəmirir,**
**Bu at Qarabağın yetirməsidir.**
**Cins bir döldür, onun yoxdur bahası,**
**Köpükdə islanmış yalı, qaşqası.**
**Fınxırır yoxuşlu yolu keçərkən,**
**Coşqun dalğalara kəc baxır hərdən**

Böyük şairin "Demon" poemasından bu misraları sakit dinləmək, riqqətə gəlməmək mümkün deyil. İnsanın qanı qaynayır. Qarabağın - Azərbaycanın rəmzlərindən biri Qarabağ atlarından danışılır çünki. 30 ilə yaxın bir müddətdə həmin misraları həm də ürək ağırısı ilə yada salmışıq. Qarabağ atlarının cövlan etdiyi Cıdır düzü şəhid qanıyla suvarılmışdı. Amma Şuşanın azadlığına qovuşmasıyla Cıdır düzü də canlandı, şəhidlərimizin ruhu da rahatlıq tapdı. Və indi köç geri qayıdır, Qarabağ atları da həmçinin. Ensiklopediyada məlumat verilir

***"Qarabağ atları brenddir. Biz bu atları dünya arenasına çıxarmalıyıq"***



ki, Qarabağ atlarının rəngləri - "kürən, qızılı-kürən, qəhvəyi, səmənd, kəhər, boz və qızılı və gümüşü çalarlı limona çalan-sarı olur". Vaxtikən azərbaycanlılar belə atları "kürat" adlandırardılar ki, bu da enerjili at deməkdir.

*(Davamı səh: 8-də)*

**Məlahət Rzayeva**



# 30 il qapıçı işlədi

### Övladlarına buraxdığı miras "dodaq uçuqladır"

**Türkiyənin Ankara şəhərində bir iş mərkəzində 30 ildən artıq qapıçı işləmiş Mehmet Kaşkayanın övladlarına buraxdığı mirası "dodaq uçuqladır" - Çankayada 8, Pursaklarda 3 ev və torpaq sahəsi, bankda böyük miqdarda qızıl və 700 min lirəlik mal-dövlət.**

M.Kaşkayanın 4 oğlu və 1 qız övladı var. Atanın ölümündən sonra var-dövlət üzərindən məhkəmə çəkişməsi başlyıb. Qardaşlar bacılarının atanın xəstəliyindən istifadə edərək bütün var-dövləti öz adına keçirdiyini iddia edərək məhkəməyə üz tutublar. Məhkəmə 10 ildir ki, davam edir. Qardaşlar atalarına qulluq etsin deyə, bacıları Gülvadə Gümüşü ata evinə yaxın bir mənzilə yerləşdiriblər. Qardaşlar iddia edir ki, bacıları ötən illər ərzində atadan miras qalan mənzillərdən alınan kirayə pullarını təkbaşına mənimsəyir. Oğullar onu da iddia edir ki, ataları son illərdə "demans" xəstəliyinə tutulub, yaddaşını, ağlını itirib. Maraqlı burasıdır ki, məhkəmə işi M.Kaşkayanın sağlığında başlayıb, hələ də davam edir. Bu müddətdə Gülvadə Gümüş atasının imzasıyla 6 mənzilə sahiblənib, bankdan böyük miqdarda pul çıxarıb. Məhkəmə kişinin həqiqətən xəstə olub-olmadığının müəyyənləşdirilməsi üçün tibbi ekspertiza təyin edib. Lakin bacıları atalarının ağlının yerində olmasına dair həkim rəyi əldə edib. G.Gümüş Pursaklardakı mənzilin birini oğlunun dostunun adına keçirib. Qardaşlarsa mirasın onların hər birinə aid olduğunu iddia edərək sənədin ləğvini tələb edir. Qardaşlar atalarına aid 1 kiloqram qızılın da bacıları tərəfindən ələ keçirildiyini iddia edir. 2013-cü ildə Ankara hüquq Məhkəməsi M.Kaşkayanın ağlının yerində olmadığından təkbaşına qərar verə bilməyəcəyinə dair qərar çıxarıb. Lakin fərqli rəylər də təqdim edilib. Qarşılıqlı etirazlar yenə davam edib. Və 7 ildir ki, məhkəmə heç cür yekunlaşmır. Məhkəmə istintaqı uzandıqca uzanır.

**Məlahət**

## Sərvəti 370 milyon dollardır

### Məşhur aparıcı villasını 13,5 milyona satdı





**Amerikalı aktrisa-aparıcı Ellen Deceneres 6 ay əvvəl aldığı villanı 13,5 milyon dollara satıb.**

Axşam.az xəbər verir ki, aparıcı Kaliforniyada yerləşən malikanəsini 1,5 milyon dollar artığına yeni sahibinə təqdim edib.

Təxminən 450 kvadratmetr sahəsi olan evdə idman zalı, ofis, 3 yataq otağı və 4 sanitar qovşağı var. Villa böyük pəncərəli şəxsi botanika bağı ilə əhatələnib. "Forbes"in məlumatına görə, Ellenin şəxsi sərvəti 370 milyon dollardır.

## Marsın aşkarlanmayan zəlzələləri üzə çıxarılıb

### Bu planetin səthində aktivlik var



**Milli Avstraliya Universitetinin alimləri yeni texnikalar ilə Marsın aşkar edilməyən zəlzələlərini üzə çıxardıqlarını açıqlayıblar. Tədqiqatçıların fikrincə, bu günə qədər ən yaxşı izahat davam edən vulkanik fəaliyyətlə bağlıdır.**

"Şərq" "NTV"ə istinadən xəbər verir ki, Mars bizim bildiyimizdən daha səs-küylüdür.

Elm adamlarının fikrincə, sübutlar planetin ölmədiyini, onun tozlu və qısır səthinin altında seysmik aktivliklə fışqıran daxili məkanın varlığı göstərir.

Milli Avstraliya Universitetinin geofiziki Hrvoje Tkalcic bu mövzuya münasibət bildirib:

"Mars mantiyasının hələ də aktiv olduğunu bilmək onun təkamülə uğradığını başa düşmək üçün çox vacibdir. Bu, Günəş sisteminin və Marsın vəziyyəti, nüvə, mantiya və hazırda çatışmayan maqnit sahəsi haqqında fundamental fikirlər təqdim edir".

Uzun müddətdir ki, elm adamları Marsın içərisində çox şey olmadığına inanırdılar.

**Cəmilə Əzim**

## Səhiyyə ocağında müayinə pəncərədən aparılır

### Xəstələr maraqlı vəziyyətlə qarşılaşıblar





**Antalyanın 30 saylı M. İhsan Oğul Ailə Sağlamlığı Mərkəzinə gedən xəstələr maraqlı vəziyyətlə qarşılaşıblar. Xəstələrin verdiyi məlumata görə, insanlar əvvəlcə qapıda duran polisə şəxsiyyət vəsiqəsinin nömrəsini deyirlər.**

Lakin onlar içəri buraxılmır. Polis xəstələrə deyir ki, həkim ya bayıra çıxacaq, ya da qonşu otağın pəncərəsinə gələrək onlarla söhbət edəcək.

Hadisədən təəccüblənən insanlar səhiyyə ocağının qarşısında həkimin gəlməsini gözləyirlər. Gələn həkim xəstədən şikayətini soruşduqdan sonra resept yazmaq üçün otağına qayıdır.

Mobil telefonunun kamerası ilə qeydə alınan görüntülərdə həkimin müayinə olunmaq istəyən xəstəni əvvəlcə sağlamlıq mərkəzindən bayıra çağırdığı görünür. Xəstənin "İçəri girə bilərəmmi" sualına həkim "Pandemiya səbəbindən xəstələnməyək deyə xəstələri içəri buraxmırıq, 2 dəfə "Covid" keçirmişəm" cavabını verir. Xəstə başqa sağlamlıq ocaqlarında belə qayda olmadığını dediyi halda, həkim telefonun işığı ilə xəstəni müayinə etməyə davam edir.

**Çimnaz**